# MOLDOVADA SEPARATİZM ALOVLANDIRILIR




Postsovet məkanının ən narahat ölkələri sırasında olan Moldovada vəziyyət gərginləşə bilər. Səbəb yenə separatizmdir. Dnestryanı bölgənin ardınca, Qaqauzda da mərkəzdənqaçma meyilləri güclənib. Kişineunun qərbpərəst mövqeyi, NATO-ya və Avropa İttifaqına inteqrasiya istiqamətində atdığı addımların intensivləşməsi Rusiyanı sərt qərarlar qəbul etməyə sövq edir.

Qaqauzda 200 minə yaxın qaqauz türkü yaşayır. Qaqauz coğrafi olaraq elə də böyük bir ərazi deyil, etnik və linqvistik olaraq əhalinin 92 faizi türkdür. Qaqauzlar türk Oğuz boyuna aid toplumdur. Xristianlığın pravoslav məzhəbinə etiqad edirlər. 1991-ci ildə Sovet imperiyası dağıldıqdan sonra müstəqillik qazanan Moldova hökuməti 1994-cü ildə qaqauzlara muxtariyyət verib.

SƏHİFƏ 6-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

2 MART ŞƏNBƏ 2024 I 08 (4159)

Qiyməti - 40 qəpik

www.kaspi.az



## SPİRTLİ İÇKİLƏRİMİZ ÜÇÜN DÜNYAYA AÇILAN QAPI

Azərbaycandan Türkiyəyə spirtli içkilərin ixracı 10 il müddətinə gömrük rüsumundan azad edilir. Bu yenilik Azərbaycana Türkiyənin spirtli içkilər bazarında öz yerini tutmaqda yardımçı ola bilər.

SƏHİFƏ 14-də



## İNTİBAHIN BEŞİYİNDƏKİ QƏDİM MÖCÜZƏ

Florensiyanın əzəmətli memarlığını görmək üçün dünyanın hər yerindən buraya turistlər gəlir. İtaliyanın Toskana vilayətinin paytaxtı turistlərə səyahət üçün təəssüratları ömür boyu yaddan çıxmayacaq yerlər təklif edir.

SƏHİFƏ 15-də



## ROBOTLAR ÜZƏRİNDƏ ARAŞDIRMA APARAN AZƏRBAYCANLI

"Problem robotlarda deyil, insanlardadır. Robot sadəcə alətdir. Robotu idarə edən insandır. Düşünürəm ki, robotlarla işin tənzimlənməsi olmalıdır. Hansı qurum robotu hansı məqsədlə yaradır, nəzarət olunmalıdır".

SƏHİFƏ 8-9-da




"BİZİM SÖZÜMÜZ İMZAMIZ QƏDƏR DƏYƏRLİDİR"

# AVROPA İTTİFAQININ SINANMIŞ TƏRƏFDAŞI

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevralından keçirilir və bu il tədbirin 10 ili tamam olur. Budəfəki toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla, 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub.

**AZƏRBAYCAN QAZI YENİ MƏNBƏDİR**

Prezident İlham Əliyev bildirib ki, Cənub Qaz Dəhlizi tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar - interkonnektorlar əlavə edilib: "Azərbaycan qazı yeni mənbədir. Yəni, biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük".

**ƏMƏKDAŞLIQ POTENSİALI BÖYÜKDÜR**

Sonra Avropa İttifaqının energetika məsələləri üzrə komissarı, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri xanım Kadri Simson çıxış edib. "Azərbaycan enerji sektorunda Avropa İttifaqının sınanmış tərəfdaşıdır və bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var", - Kadri Simson deyib.

SƏHİFƏ 2-də

Əvvəl Münhendə, indi isə Berlində



## ALMAN PRAQMATİKLİYİ, FRANSIZ EKSPANSİONİZMİ

Fransanın son üç il ərzində yersiz müdaxiləsi və Ermənistana açıq kömək etməsi Avropanın digər nəhəngi olan Almaniyanın vəziyyətə soyuq başla yanaşmasına səbəb olur. Çünki Fransaya görə korlanan Avropa-Azərbaycan münasibətlərinin fəsadlarını tək fransızlar deyil, hamı yaşaya bilər.

Sülh müqaviləsinin hazırlanması zamanı məğlub tərəfin qaliblə eyni statusda təmsil olunması mümkün deyil. İrəvan üçün sülhə nail olmaq hava-su kimi lazımdır. Növbəti müharibə Ermənistanın dövlət, ermənilərin isə xalq kimi Cənubi Qafqazdakı mövcudluğuna son qoya bilər.

SƏHİFƏ 4-də



## ŞİRKƏTİN PULU GEDİR, VƏTƏNDAŞIN ÖMRÜ

Bakıda köhnə yaşayış binaları ilə bağlı bəzi pilot layihələri həyata keçirən şirkətlərdən narazılıqlar var. Bəzən bu şirkətlər tikdikləri binaları vətəndaşlara söz verdikləri vaxtda təhvil verə bilmirlər və bu, problemlər yaradır.

SƏHİFƏ 12-də



## "VƏTƏN XAİNİ" OLANLARIN MUZEYİ

Təəssüf ki, repressiya qurbanları tək şairlər, yazıçılar, alimlər deyildi. Onların xanımları da bu müsibətin bir parçası olublar. Onlara deyirdilər ki, ərin vətənə xəyanət edəndə xəbər verməmisənsə, deməli, sən də xainsən!

SƏHİFƏ 11-də



## ƏZƏLİ RƏQİBLƏRİN AMANSIZ YARIŞI

"Qalatasaray" və "Fənərbağça"nın çempionluq mübarizəsi həm meydanda, həm də meydandan kənarda rəngarəngdir. Mövsümün sonuna doğru tərəflər üstünlük əldə etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırlar.

SƏHİFƏ 16-da



Öz bataqlığında çabalayan Fransa

SƏHİFƏ 3-də



Ermənilərin tarix dərsliyi davası

SƏHİFƏ 5-də



"Heyvandarlıq artıq rentabelli deyil"

SƏHİFƏ 10-da

SOCAR

SOCAR-dan "xalis sıfır" hədəfi

SƏHİFƏ 13-də



Turizm sənayemiz Novruza necə hazırlaşır?

SƏHİFƏ 13-də



## Kadri Simson İlham Əliyevi təbrik edib

Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən qonaqları ayrı-ayrılıqda qəbul edib.

Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

Prezident dünən həmçinin Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonu da qəbul edib.

Kadri Simson İlham Əliyevə prezident seçkilərində qələbə, Azərbaycanın COP29-a ev sahibliyi etməsi və Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu yubiley iclası münasibətilə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib.

Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Avropanın enerji təchizatında Azərbaycanın rolunun əhəmiyyətini və dayanıqlılığını vurğulayıb.

Söhbət zamanı gələcəkdə enerji növləri ilə yanaşı, bərpaolunan enerji layihələrinin də həyata keçirilməsinin perspektivləri və Azərbaycanda icra olunan layihələrdə Avropa şirkətlərinin investor qismində daha fəal rol oynaması ilə bağlı imkanlar müzakirə olunub. Həm COP29, həm də enerji əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində gələcək addımlar və fəaliyyət planı ilə bağlı fikir mübadiləsi aparılıb, ölkəmizin qlobal metan azaldılması təşəbbüsünə qoşulması çox yüksək qiymətləndirilib.

# AVROPA İTTİFAQININ SINANMIŞ TƏRƏFDAŞI

**Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlər toplantısı 2015-ci ilin fevral ayından etibarən keçirilir və bu il tədbirin 10 ili tamam olur. Budəfəki toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla, 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub.**




Martın 1-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### "CƏNUB QAZ DƏHLİZİ TAMAMİLƏ YENİ MARŞRUTDUR"

Prezident İlham Əliyev bildirib ki, Cənub Qaz Dəhlizi tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar - interkonnektorlar əlavə edilib: "Azərbaycan qazı yeni mənbədir. Yəni, biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük".

Dövlət başçısının sözlərinə görə, "Abşeron" qaz-kondensat yatağı bizim gələcək şaxələndirmə layihələrimizin resurs bazasını təşkil edəcək: "Abşeron" layihəsinin ilk fazası artıq təsdiq edilib. Biz orada illik hasilatın 1.5 milyard kubmetr həcmində olmasını göz-ləyirik. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr həcm əlavə ediləcəkdir ki, onun böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaq".




### "SÖZÜMÜZ İMZAMIZ QƏDƏR DƏYƏRLİDİR"

Prezident bildirib ki, bu gün Azərbaycan 8 ölkəyə qaz nəql edir ki, onlardan altısı Avropa ölkəsidir. Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində, ilk növbədə, Cənub Qaz Dəhlizi layihəsi dayanır. "Azərbaycan qazına olan mövcud tələbat var, ixtiyarımızda mənbələr var və nəqliyyat marşrutlarımız yerindədir", - dövlət başçısı qeyd edib.

İlham Əliyevin sözlərinə görə, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib: "Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin östəriciləri bunun sübutudur".

### "YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ"



Dövlət başçısı vurğulayıb ki, Azərbaycan, həmçinin yaşıl enerjiyə keçid prosesində iştirak edir. Bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub: "Bizim bərpaolunan enerji ehtiyatları baxımından nəhəng potensialımız var, istər Xəzər dənizində, istərsə də qurudakı potensial olsun. Bildiyimiz kimi, biz "Qara Dəniz Yaşıl Kabel" layihəsi ilə Avropaya yaşıl enerjinin önəmli ixracatçılarından biri olmağı nəzərdə tuturuq".

Prezident daha sonra deyib ki, Azərbaycana COP29-a sahiblik edən ölkə olmaq şərəfi nəsib olub. Keçən ilin dekabrında qərar qəbul olunan kimi biz dərhal, yalnız bir səbəbdən müxtəlif QHT-lər və media təşkilatlarının hücumuna məruz qaldıq. Çünki bizim neftimiz var və bu, bizim ən böyük nöqsanımız hesab olunub. Baxmayaraq ki, qeyd etdiyim kimi bu qüsur deyil, Allahdan bir hədiyyədir".

### "ƏMƏKDAŞLIĞIN GENİŞLƏNDİRİLMƏSİ ÜÇÜN BÖYÜK POTENSİAL VAR"

Dövlət başçısının sözlərinə görə, əvvəlki illərdə Azərbaycana qarşı çoxlu hücumlar olub: "Biz buna adət etmişik, biz özümüzü müdafiə edə bilərik. Lakin mən sizə, sadəcə, məlumat vermək istəyirəm ki, COP29-un Azərbaycanda təşkil edilməsi qərarı, yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir və bizim tədbirə ev sahibliyi etmək, bu işə töhfə vermək istəyimiz yaşıl gündəliyimizi nümayiş etdirir".

Sonra Avropa İttifaqının energetika məsələləri üzrə komissarı, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının həmsədri xanım Kadri Simson çıxış edib. "Azərbaycan enerji sektorunda Avropa İttifaqının sınanmış tərəfdaşıdır və bu sahədə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var", - Kadri Simson deyib. Onun sözlərinə görə, Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya təbii qaz nəqli hazırda 2021-ci illə müqayisədə 46 faiz çoxdur: "Dediyim kimi, Azərbaycan həqiqətən də Avropa oyunçusuna çevrilir, buna görə də biz bu birgə təchizat sistemini genişləndirməyə çalışırıq".

# ÖZ BATAQLIĞINDA ÇABALAYAN FRANSA



Azərbaycanın ali rəhbərliyinin istənilən bəyanatı hər zaman tutarlı faktlara və arqumentlərə əsaslanıb. Hər bir açıqlamanın arxasında təkzibolunmaz sübutların dayandığını elə bu oyunları quranların özləri də yaxşı bilirlər. Bu dəfə də fərqli deyil.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Son aylarda Qərbdə Azərbaycana qarşı qərəz və böhtana əsaslanan siyasi şantaj və təzyiqlərin yeni dalğasını müşahidə edirik. Ərazi bütövlüyümüzü və suverenliyimizi tam təmin etdikdən sonra bu çirkin kampaniya daha geniş vüsət alıb. Xüsusilə də Makron Fransasının "öndərliyi" ilə gerçəkləşdirilən məlum olaylar Cənubi Qafqazı yenidən qaynar qazana çevirmək məqsədi daşıyır. Rəsmi Bakı sülhü əngəlləyən, Azərbaycanın milli maraqlarını, haqlı mövqeyini şübhə altına almağı hədəfləyən bu kampaniyanın əsas "dayaqları"nın kimliyini konkret adı ilə qeyd edir.

### DİGƏR ÖLKƏLƏRDƏN FƏRQLİ ADDIMLAR ATMIRIQ

Prezident İlham Əliyevin Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə vurğuladığı məqamlar bu baxımdan xüsusilə ilə diqqət çəkir. "Beynəlxalq hüququn normaları bizim tərəfimizdədir", - deyən Prezident İlham Əliyev qeyd edib ki, ölkəmizin suverenliyini və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır. Dövlətimizin başçısı təəssüf hissi ilə qeyd edib ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib: "Bu baxımdan Cozef Borrelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib. Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borrel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlaşması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir".

### BAKI HƏR ŞEYİN FƏRQİNDƏDİR

Prezidentin açıqlamalarından da göründüyü kimi, rəsmi Bakı hər şeyin fərqindədir. Özünə qarşı yönələn zəhərli fransız oxlarının hədəfə dəyməməsi üçün önləyici tədbirlər görür. Hər şeyin və hər kəsin adını, məqsədlərini açıq şəkildə dilə gətirməklə anti-Azərbaycan planları barədə məlumatlı olduğunu, Qərbdəki digər tərəfdaşlarımızın Fransanın onsuz da uğursuzluğa məhkum olan oyunlarına qoşulmasının onlara da zərər verəcəyini diplomatik yollarla diqqətə çatdırır. Reallıq isə bəllidir. Cənubi Qafqazda əsas söz sahibi Azərbaycandır. Bölgənin həm iqtisadi, həm də siyasi mərkəzi Bakıdır. Azərbaycanın geosiyasi və coğrafi mövqeyi, müstəqil siyasi kursu, reallaşdırılan enerji və nəqliyyat layihələrinin həm təşəbbüskarı, həm də əsas bəndi qismində çıxış etməsi onun tələblərinin yerinə yetirilməsinin zəruriliyini ortaya qoyur. Bu tələblər isə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanır. Daxili işlərimizə qarışmamaq, əməkdaşlıqda bərabərhüquqlu, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətin sərgilənməsi, milli maraqlarımızın nəzərə alınması, ərazi bütövlüyümüz və suverenliyimizə qarşı təhdidlərə son qoyulması Bakının tərəfdaşlarından əsas tələbləridir.



Emmanuel Makron

Cozef Borrel

## İKİLİ STANDART, YOXSA BİZİMLƏ APARILAN BİR OYUN?!




Qeyd olunan məqamların hədəf halına gətirilməsi Qərbin ikili standartlı siyasətinin əsas konturlarını təşkil edir. Biz bunu Avropa Şurası Parlament Assambleyasının son sessiyasında ölkəmizə qarşı qəbul edilən əsassız və məntiqsiz qərarlarda bir daha müşahidə etdik.

Prezident İlham Əliyevin də vurğuladığı kimi, biz Cənubi Qafqazda ayırıcı xətlərin qurulması cəhdlərini görürük: "Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim İslam dinimizdir. Mən demirəm ki, bu mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs Kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu, ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?!" Prezident İlham Əliyev bildirib ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik.

Göründüyü kimi, Bakının ona qarşı yönələn təhdidlərə cavab reaksiyası hər zaman hazırdır. AŞPA-da hazırda cəmi iki müsəlman ölkəsi var. Bunlardan birinin üzvlüyünün dayandırılması isə qurumun özünün insan hüquqları, din azadlığı, tolerantlıq kimi dəyərlərini tapdaladığını bütün dünyaya əyani şəkildə göstərmiş olacaq. Burada uduzan Azərbaycan yox, elə bu oyunu quran Fransa və onun maşası halına gələn Avropa strukturları olacaq. Bakının gələcək əməkdaşlıq və beynəlxalq inteqrasiya ilə bağlı xarici siyasət kursunun əsas istiqamətləri bir müddət öncə ən ali səviyyədə bəyan edilib. Bu səbəbdən, indi Qərbdə Bakını hədəf alanlar özləri yaratdıqları bataqlıqda çabalayırlar.

## BİZİ HƏDƏFƏ ALANLARIN TEATRINDA ANŞLAQ ALINMAYACAQ

Azərbaycanın ali rəhbərliyinin istənilən bəyanatı hər zaman tutarlı faktlar və arqumentlərə əsaslanıb. Hər bir açıqlamanın arxasında təkzibolunmaz sübutların dayandığını elə bu oyunları quranların özləri də yaxşı bilirlər. Bu dəfə də fərqli deyil. Məsələn, Bakı bir müddət əvvəl Fransanın ölkəmizdə fəaliyyət göstərən casus şəbəkəsini ifşa etdi. Bu addım Fransa hakimiyyəti daxilində ciddi rezonans doğurdu. İndi isə Paris aldığı bu zərbənin şokunu üzərindən atmaq üçün Ermənistan üzərindən eyni oyunları davam etdirir. İşğalçı dövləti silahlandırmaqla yanaşı, baş nazir Nikol Paşinyanın Parisə son səfəri zamanı Fransa ilə Ermənistan kəşfiyyatları arasındakı gizli razılaşma da bu planın tərkib hissəsidir. Ancaq dəyişməyən bir reallıq var. Ssenarisində Azərbaycan hədəfə alınmaqla qurulan istənilən tamaşada baş rol ifaçısının və yardımçılarının kim olmasından asılı olmayaraq, anşlaq alınmayacaq.

# ALMAN PRAQMATİKLİYİ, FRANSIZ EKSPANSİONİZMİ



Fransanın son üç il ərzində yersiz müdaxiləsi və Ermənistana açıq kömək etməsi Avropanın digər nəhəngi olan Almaniyanın vəziyyətə soyuq başla yanaşmasına səbəb olur. Çünki Fransaya görə korlanan Avropa-Azərbaycan münasibətlərinin fəsadlarını tək fransızlar deyil, hamı yaşaya bilər.



RÜSTƏM QARAXANLI

Azərbaycan və Ermənistan XİN rəhbərlərinin Berlin görüşünün nəticələri barədə ehtimal irəli sürmək asan deyil. Ermənistan şərti sərhəddə təxribatları bərpa edib, Avropa isə başda Fransa olmaqla, qitə miqyaslı strukturlar vasitəsilə Azərbaycana münasibətdə qərəzli aksiyalarını davam etdirir. Avropalı parlamentarilər tərəfindən Bakıya qarşı sanksiya və hətta embarqonun tətbiq edilməsinə dair çağırışlar səslənir. Bu məzmunlu bəyanatlar təbiəti etibarilə populist olsa da, təbliğati müstəvidə öz işini görür: Azərbaycan neqativ, Ermənistan zərərçəkən obrazda təqdim olunur. Belə bir mənzərə prosesin sülhə doğru irəliləməsindən daha çox, müharibə ehtimalına tərəf yuvarlanması anlamına gəlir.

### MƏKTUBLAŞMA FORMATINDAN CANLI FORMATA

Ceyhun Bayramovla Ararat Mirzoyanın Almaniyanın XİN rəhbəri Annalena Berbokun vasitəsilə baş tutan iki günlük görüşü göstərir ki, sülh prosesi yenidən məktublaşma formatından canlı formata keçir. 44 günlük müharibə və bir sutkalıq antiterror tədbirləri ilə nokdauna düşən Ermənistanın nokautla ringi tərk etməməsi Azərbaycanın humanist yanaşmasının göstəricisidir. Sülh müqaviləsinin hazırlanması zamanı məğlub tərəfin qaliblə eyni statusda təmsil olunması mümkün deyil. Hərb və sülh tarixində hələ belə bir hal qeydə alınmayıb. İrəvan üçün sülhə nail olmaq hava-su kimi lazımdır. Növbəti müharibə Ermənistanın dövlət, ermənilərin isə xalq kimi Cənubi Qafqazdakı mövcudluğuna son qoya bilər. Tək Azərbaycan deyil, Türkiyə ilə ədavəti və Rusiya ilə münasibətlərinin düşmənçilik statusuna qaldırılması Ermənistanın hazırkı geosiyasi vəziyyətini o qədər mürəkkəbləşdirib ki, ondan tarixən formalaşmış ümummilli immunitet vasitəsilə çıxmaq müşkül məsələdir.

### ALMANİYANIN QORXULARI

Əvvəl Münxendə, sonra isə Berlində Almaniyanın vasitəçilik missiyasını üzərinə götürməsi, təşəbbüsdən daha çox məsuliyyətin hiss edilməsidir. Almaniya bu kimi proseslərdə adətən aktiv görünmür. Münaqişə tərəfləri arasındakı moderatorluq rəsmi Berlinin ən yaxşı bacardığı iş deyil. Ancaq Fransanın son üç il ərzində yersiz müdaxiləsi və Ermənistana açıq kömək etməsi Avropanın digər nəhəngi olan Almaniyanın vəziyyətə soyuq başla yanaşmasına səbəb olur. Çünki Fransaya görə korlanan Avropa-Azərbaycan münasibətlərinin fəsadlarını tək fransızlar deyil, hamı yaşaya bilər. Qitənin iqtisadi problemlərinin çözümü adətən Almaniyanın çiyinlərinə düşdüyündən, Berlində hazırkı durumun məsuliyyətini yaxşı dərk edirlər.



## FRANSA BÜTÜN AVROPANI OYUNDANKƏNAR VƏZİYYƏTƏ SALIB

Fransa aqressiv və birtərəfli yanaşması ilə tək özünü deyil, bütün Avropanı oyundankənar vəziyyətə salıb. Parisin Qafqazın cənubundan olan ekspansionist gözləntiləri bütün Avropanı düşündürəcək və çətinliyə salacaq problem deyil. Uzanan Rusiya-Ukrayna müharibəsi və Qərb-Moskva ziddiyyətləri reallığında Avropaya, əsasən də onun mühərriki rolunda çıxış edən Almaniyaya enerji mənbələri və tranzit yolları lazımdır. Son iki ildir dünyanın diqqətinin Cənubi Qafqazdan keçən "Orta dəhliz"ə yönəldiyi bir vaxtda Almaniya və bütün Avropanın Fransanın Ermənistan ambisiyalarına ilişib qalması ağlasığmaz görünür. Bu gün Çin dünya istehsalının 35%-nə malikdir və "Orta dəhliz"in əsas təşviqatçılarından biridir. Fermerlərinin əlində qalmış Makronun belə bir iqtisadi sunaminin qarşısında nə vaxtadək tab gətirəcəyi sual doğurur. Bu miqyasda qlobal tranzit və logistik layihənin cəmi bir neçə kilometrlik Zəngəzur dəhlizinə görə reallaşmaması nə qədər ağlabatandır?

## ERMƏNİSTAN KONSTİTUSİYASINDA FRANSIZ BARMAĞI

Əminliklə qeyd etmək olar ki, Berlin danışıqlarının əsas mövzularından biri Ermənistanın daxili qanunvericiliyi olub. Konstitusiyada Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının olması imzalana biləcək istənilən sülhü qeyri-yetkin və müvəqqəti edir. Ermənistandan fərqli olaraq, Azərbaycan və Türkiyə ciddi dövlətlərdir. Bu səbəbdən konstitusiya dəyişilməzsə, yekun sülhdən danışmaq əbəsdir. Müharibənin hərb tərəfi döyüş meydanında ordular arasında həll edilir. Qonşulara qarşı aqressiv daxili qanunvericilik isə xalqın və xalqı arxasınca aparan hakimiyyətin məsuliyyət dairəsidir. Paşinyan hökumətinin bu ballastdan qurtulmaq istəyi hiss olunur, ancaq belə görünür ki, burada da Fransanın təzyiqləri ilə üzləşir. Paris indi Ermənistanın daxili işlərinə, hətta qanunvericilik prosesinə də müdaxilə etməyə başlayıb. Parisdə səfərdə olan Paşinyanı bu ölkədəki baş daşnak Murad Papazyanla barışdırmaq niyyəti Makronun məhz bu hədəfinin göstəricisidir. Barışıq daşnakların erməni cəmiyyəti və hakimiyyətə nüfuzunu artıra bilər. Bu isə radikal ab-havanın güclənməsi deməkdir ki, belə bir gerçəklikdə konstitusion dəyişikliklərdən danışmaq sadəcə vaxt itkisidir.



Qanunverici səviyyədə ərazi iddiaları müharibənin davam etməsi deməkdir. Belədirsə, hansı sülh barədə danışmaq olar? 30 illik işğala 44 gün 23 saata son qoyan Azərbaycan suverenliyinə qarşı yönəlmiş təhdidin aradan qaldırılmasını çox gözləyə bilməz. Paşinyanın ötən ilin sonundan etibarən rəsmi görüşlərdə geyinməyə başladığı papağını qarşısına qoyub düşünməsi vaxtıdır: əsas imic deyil, dövlətin və xalqın müqəddəratıdır.

PAŞİNYANLA KİLSƏNİ QARŞI-QARŞIYA GƏTİRƏN NÖVBƏTİ QƏRAR

# ERMƏNİLƏRİN TARİX DƏRSLİYİ DAVASI

Ermənistanda tarix dərsliyinin adının dəyişdirilməsi ciddi etirazlara səbəb olub. Kilsə bu addımın ona qarşı yönəldiyi qənaətindədir. Buna görə də nüfuzundan istifadə edərək, müxtəlif şəxsləri, qurumları hökumətə qarşı qaldırır. Paşinyan isə cəza maşınını işə salır.



**FUAD ABASOĞLU**

Son aylar Ermənistanın təlatümlü ictimai həyatına yeni bir qalmaqal da əlavə edilib. Baş nazir Nikol Paşinyanın göstərişi ilə orta məktəblərdə tədris edilən tarix dərsliyinin adının dəyişdirilməsi üçün Təhsil Nazirliyi tərəfindən müəyyən addımlar atılır. Nikol Paşinyanın fikrincə, bu günə qədər məktəblərdə "Erməni tarixi" adlı fənnin tədris edilməsi səhv addımdır və bu, erməni dövlətçiliyinin olmadığını büruzə verir. Bu səbəbdən də dərsliyin adı "Ermənistan tarixi" olaraq dəyişdirilib. Bu isə ciddi etirazlara səbəb olub. Xüsusən də müxalifət və kilsə bu addımı qəti şəkildə tənqid edir. Əslində 7 və 9-cu siniflərin dərsliklərində aparılan dəyişikliklər bir sıra mətləblərdən xəbər verir.

### QARABAĞ AZƏRBAYCANIN SƏRHƏDLƏRİ DAXİLİNDƏ GÖSTƏRİLİB

Bir müddət əvvəl baş nazir Ermənistan məktəblərində tədris edilən tarix kitablarından "Erməni kilsəsinin tarixi" mövzusunun çıxarılmasına nail olub. Bu da kilsə ilə hökumət arasında uçurumun ciddi şəkildə dərinləşdiyini göstərir. Hadisələrin fonunda hakimiyyətin diktəsi ilə tarix kitablarının bəzilərinin adı "Vətənim" olaraq dəyişdirilib. Yeddinci siniflərin dərsliyinə salınan xəritədə Qarabağ Azərbaycanın sərhədləri daxilində göstərilib. Bununla yanaşı, dərsliklərə "məxməri inqilab" mövzusu əlavə olunub, inqilabın simalarına xüsusi bölmələr ayrılıb. Atılan bu addımlar cəmiyyətdə, xüsusən də Eçmiədzində ciddi rezonans doğurub. Dərslik üzərində işləyən ekspertlərin etirafına görə, "Erməni tarixi" siyasi tarix deyil, əfsanələr toplusu olduğu üçün ondan imtina etməyin vaxtı çatıb. Bu kitabda çoxlu səhv var və məktəblilərə aşılanan bilgilərə əsasən, qədim və orta əsrlərdə ermənilər çox güclü və yaxşı olub, digər bütün millətlər isə pis və zəif.

## KİLSƏNİN CAVAB ADDIMI

Erməni kilsəsi əslində hücumların ona qarşı yönəldiyini anladığı üçün hərəkətə keçib. İlk olaraq Eçmiədzinin Tədris Komitəsi təhsil naziri Janna Andreasyana məktub göndərərək, "Erməni tarixi" fənninin yeddinci sinif dərsliyinin hazırlanması prosesində və məzmununda bir sıra nöqsan və səhvlərin olması barədə xəbərdarlıq edib. Bundan əlavə, kilsə öz rıçaqlarını işə salaraq, müxtəlif şəxslər vasitəsilə hökumətin bu qərarını tənqid edərək ictimaiyyəti "aydınlatmaq" qərarına gəlib. Məsələn, tarix elmləri doktoru Hayk Demoyan da nazirə məktub yazıb, etirazını bildirib. Bundan əlavə, "Trésors d'Arménie" Erməni Assosiasiyasının təhsil departamentinin direktoru Anqela Arutyunyan dərsliyin müəllifi Smbat Hovhannisyanı tənqid edib. Tarix elmləri doktoru, qondarma Erməni Soyqırımı Muzey-İnstitutunun keçmiş direktoru Hayk Demoyan isə bildirib ki, dərs vəsaitinin hazırlanması üçün redaksiya heyəti yaradılmayıb, müxtəlif tarixi dövrlərlə bağlı mütəxəssislər cəlb olunmayıb.

Kilsənin sifarişi ilə tənqidçilər sırasına son olaraq keçmiş ədliyyə naziri Qevorq Danielyan da qoşulub. O, daha da irəli gedərək, baş verən hadisəni erməni dövlətçiliyindən imtina kimi dəyərləndirib.

İrəvan Dövlət Universitetinin tarix fakültəsi də kilsənin başlatdığı kampaniyaya rəsmən qoşulub. Müəllim heyəti dərsliyin adının dəyişdirilməsindən narahat olduğunu bildirib və məsələdə siyasi motivlər olduğunu xatırladıb. Bundan əlavə, müxalifətin müxtəlif simaları, şərqşünas və politoloqlar da kilsənin səsinə səs verərək, tənqid axınına qoşulublar. Səsləndirilən tənqidi bəyanatlar erməni cəmiyyətində ciddi çaşqınlığa səbəb olub.

### PAŞİNYANIN CƏZA TƏDBİRLƏRİ İŞƏ DÜŞÜB

Tənqidlərin ardı-arası kəsilmədiyi və yeni-yeni simaların axına qoşulduğundan Paşinyanın cəza maşını işə düşüb. Məlum olub ki, martın 27-də Milli Təhsil və İnnovasiyanın İnkişafı Mərkəzinin şöbələrindən biri bağlanacaq. Şöbə müdiri vəzifəsini icra edən tarix elmləri üzrə fəlsəfə doktoru Arman Maloyan və doqquz əməkdaşı işsiz qalacaq. Məsələ burasındadır ki, dərsliklə bağlı kəskin tənqid səsləndirənlərdən biri də məhz Arman Maloyan olub. Bir faktı da nəzərə almaq lazımdır ki, şöbə əməkdaşlarından biri zəmanətli dərsliklər siyahısından çıxarılan "Ermənistan tarixi" adlı digər dərsliyin həmmüəllifidir.

### TƏHSİL NAZİRİNİN İSTEFASI TƏLƏB OLUNUR

Bununla belə, etirazlar səngimir və "Təhrif olunmuş dərsliyi alaq otlarından təmizləyin" adlı Təşəbbüs Qrupu Təhsil Nazirliyinin qarşısında Janna Andreasyanın istefası tələbi ilə etiraz aksiyası keçirib. Bu təşəbbüsə Ermənistan Xalq Hərəkatının koordinatoru Vazgen Petrosyan, deputat Larisa Alaverdyan, "Zartnok" qəzetinin redaktoru Sevak Akopyan kimi simalar da qoşulub. Təşkilatçılar elan ediblər ki, nazir istefa verənə qədər davamlı etiraz aksiyaları keçiriləcək.

Yuxarıda sadalananlardan məlum olur ki, Paşinyan - kilsə qarşıdurması yeni mərhələyə qədəm qoyur. Tərəflər bir-birini müxtəlif məsələlərdə ittiham etməklə yanaşı, əllərində olan rıçaqlardan tam istifadə etməkdən çəkinmirlər. N.Paşinyan cəza maşınını işə salır, kilsə isə nüfuzundan istifadə edərək, müxtəlif şəxsləri, qurumları dövlətə qarşı qaldırır. Hazırda erməni dövlətində din-dövlət qarşıdurması kifayət qədər dərinləşib.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az




# Moldovada separatizm ALOVLANDIRILIR

Kişineunun qərbpərəst mövqeyi, NATO-ya və Avropa İttifaqına inteqrasiya istiqamətində atdığı addımların intensivləşməsi Rusiyanı hərəkətə keçirib. İndi də "qaqauz kartı" işə salınır. Ekspertlər vəziyyətin təhlükəli həddə doğru inkişaf etdiyi qənaətindədər.



AZƏR NURİYEV

Postsovet məkanının ən narahat ölkələri sırasında olan Moldovada vəziyyət gərginləşə bilər. Səbəb yenə separatizmdir. Dnestryanı bölgənin ardınca, Qaqauzda da mərkəzdənqaçma meyilləri güclənib. Kişineunun qərbpərəst mövqeyi, NATO-ya və Avropa İttifaqına inteqrasiya istiqamətində atdığı addımların intensivləşməsi Rusiyanı sərt qərarlar qəbul etməyə sövq edir. Gərginlik o həddə çatıb ki, ölkənin cənubundakı muxtariyyətdə deputatlar qurultay keçirmək barədə qərar qəbul ediblər. Dnestryanı bölgədən nümunə götürən qaqauzlar bu tədbiri keçirmək üçün bəhanə də tapıblar. İddia ediblər ki, Kişineudan artan təzyiqlər praktiki olaraq region iqtisadiyyatını iflic edib. Qaqauzlar bildiriblər ki, muxtar qurumun mərkəzi hakimiyyət tərəfindən "məhv edilməsinə" qarşıdırlar. Onlar deyiblər ki, Rusiya və Türkiyə rəhbərliyinə müraciət edərək, liderlərdən Qaqauzun xüsusi hüquqi statusu haqqında qanunun icrasının təminatçısı olmağı istəyəcəklər.

### GƏRGİNLİYƏ SƏBƏB OLAN QƏRAR

Qeyd edək ki, inzibati mərkəzi Komrat şəhəri olan Qaqauzda 200 minə yaxın qaqauz türkü yaşayır. Qaqauz coğrafi olaraq elə də böyük bir ərazi deyil, etnik və linqvistik olaraq əhalinin 92 faizi türkdür. Qaqauzlar türk Oğuz boyuna aid toplumdur. Xristianlığın pravoslav məzhəbinə etiqad edirlər. 1991-ci ildə Sovet imperiyası dağıldıqdan sonra müstəqillik qazanan Moldova hökuməti 1994-cü ildə qaqauzlara muxtariyyət verib. Muxtar vilayətdə üç rəsmi dil var - moldovan, rus və qaqauz dilləri. Məktəblərdə dördüncü sinfin son rübünə kimi ana dilləri olan qaqauz türkcəsində dərslər keçilir. Bu yaxınlarda Qaqauz parlamenti gərginliyə səbəb olan qərar qəbul edib. Kişineu ilə dialoqun olmamasını əsas gətirərək yerli parlamentlərarası təmas qrupunda işini dayandırıb. Deputat İvan Qaraca deyib: "Qapıları bağlamırıq. Amma əgər bizə elə münasibət bəsləyirlərsə, Kişineuya gedib alçalmağın nə mənası var? Biz ikinci dərəcəli insanlar deyilik".




## MOLDOVA REGİONLARI SIRASINDA ƏN KASIB BÖLGƏ

Qeyd edək ki, Qaqauz Avropada Rusiyanın ən böyük nüfuza malik olduğu bölgələrdən biri hesab olunur. Moldovanın tərkibindən çıxmaq hüququna sahib olan region ölkədə keçirilən səsvermələrdə daim rusiyayönlü siyasətçi və partiyalara səs verir. Misal üçün, sabiq prezident İqor Dodon sözügedən türk bölgəsindən 99 % səs ala bilib. Qaqauz həm də Moldova regionları arasında ən kasıb bölgədir. Kremlə meyllilik qaqauzları hökumətin bir çox iqtisadi və sosial layihələrindən, investisiya proqramlarından kənarda qoyub. Qaqauzlar Moldovanın müstəqillikdən imtina edib Rumıniyaya birləşməsinə də qarşı çıxırlar.

Baş tutacaq qurultaya gəldikdə, təşkilat komitəsinin üzvləri Qaqauz muxtariyyətinin yaradıcılarını, ictimai xadimləri, deputatları (indiki və keçmiş) Moldova Respublikasının öhdəliklərini yerinə yetirməsilə bağlı müzakirələrə dəvət edirlər. Qurultayın təşəbbüskarlarından biri, "Qaqauz Xalki" ictimai təşkilatının rəhbəri İvan Burqudji hesab edir ki, indiki şəraitdə Qaqauz prezidentlər Vladimir Putin və Rəcəb Tayyib Ərdoğana rəsmi müraciət etməlidir.

Moldovanın keçmiş baş naziri İon Çiku bildirib ki, muxtariyyətin yerli büdcəsi maliyyə təzyiqinə tab gətirməyəcək. Qaqauz bölgəsi sakinlərinin qəzəbinə və etirazına səbəb olan da budur: "Vəziyyətdən çıxış yolu bütün ölkə ərazisində ƏDV-nin toplanması və ödənilməsi üçün ümumi qayda tətbiq etməkdir".

Bu arada, 2023-cü ilin aprelində xalq tərəfindən muxtariyyətin başqanı seçilən Yevgeniya Qutsul Moldova hakimiyyəti tərəfindən tanınmadığı üçün hələ də tam olaraq vəzifələrini yerinə yetirə bilmir. Moldova Prezidenti Mayya Sandu bildirib ki, Qutsul rüsvay edilmiş siyasətçi İlan Şorun rəhbərlik etdiyi cinayətkar dəstənin üzvüdür. Prezidentin sözləri ötən gün Avropa İttifaqının Kişineudakı missiyasının rəhbəri Yanis Mazeiks tərəfindən də təkrarlanıb. Jurnalistlərin Qərb ölkələrinin səfirlərinin niyə başqanla görüşməməsi ilə bağlı sualını cavablandıran Mazeiks deyib: "Cinayətkarla əlaqəsi olan başqanla dialoq aparmaq mümkün deyil".

Yeri gəlmişkən, Dnestryanı bölgədə də proseslər yeni mərhələyə adlayıb. Separatçıların "parlamenti" Rusiyaya onları "xilas etmək" üçün müraciət ünvanlayıb.

## REFERENDUM OLACAQMI?

Moldovanın 2030-cu ildən daha tez Avropa İttifaqına üzv olması üçün referendum keçirilməsinin zəruriliyindən danışılır. Parlamentin spikeri İqor Qrosu deyib ki, bu il referendumun keçirilməsi və danışıqlar prosesinə tam sürətlə başlamaq çox vacibdir: "Hesab edirəm ki, bizim Aİ-yə qoşulma anını daha da yaxınlaşdırmaq üçün mümkün olan hər şeyi etmək imkanımız və öhdəliyimiz var. Mən ukraynalı həmkarlarımda da eyni ruhu və yanaşmanı hiss edirəm".

### TÜRKİYƏ DƏ REGİONDA GÜCLƏNMƏYƏ ÇALIŞIR

Yeri gəlmişkən, Türkiyə də Moldovada, xüsusən də Qaqauzda mövqelərini gücləndirməyə çalışır. Məsələn, Türkiyə Beynəlxalq Ticarət və Əməkdaşlıq Şurasının prezidenti Əziz Şahin deyib ki, Qaqauza 2 milyard dollar həcmində sərmayə qoymağa hazırdırlar.

2016-cı ildə Türkiyə və Moldova arasında sərbəst ticarətin aparılmasına dair razılaşma Qaqauzda da yeni imkanlara yol açıb. Son 8 ildə buradan Türkiyəyə ixrac dörd dəfə artıb. Bölgədə Türkiyə sərmayəli 100-dən artıq şirkət rəsmi qeydiyyatdadır. Tək 2020-ci ildə Türkiyədən Qaqauza 40 milyon dollara yaxın idxal gerçəkləşdirilib. Hələ 2018-ci ildə prezident R.T.Ərdoğan işgüzar səfər çərçivəsində Moldovada olarkən Qaqauzu da ziyarət etməyi unutmamışdı. 2020-ci ildə burada Türkiyə konsulluğu açılıb.

Beləliklə, bölgədə vəziyyət gərginləşməyə doğru gedir. Qaqauzun da Dnestryanı bölgə kimi separatizmə doğru yuvarlanacağı proqnozlaşdırılır. Bu isə Moldova tərəfindən sərt addımlarla qarşılana bilər.


İqor Qrosu

## BANKLARIN VƏ VƏTƏNDAŞLARIN İPOTEKA KREDİTLƏRİNƏ MARAQLARI ARTIR

# Artması yaxşıdır, amma RİSKLƏRİ DƏ VAR



**Son zamanlar vətəndaşların bankların təklif etdiyi daxili ipotekaya marağı artıb. Əvvəllər ümumi mənzil alqı-satqısında dövlət ipotekasının payı təqribən 6-7 faiz civarında idi. Bankların bu prosesə qoşulmasından sonra ipoteka kreditləşməsinin ümumi mənzil alqı-satqısında payı 15 faizə yüksəlib.**

AYGÜN ASİMQIZI

2023-cü ildə banklar öz hesablarına 461.4 milyon manat ipoteka krediti veriblər. 2022-də isə bu rəqəm 422.5 milyon olub. Yəni, bir ildə 9,2 faiz artım var. Əslində, bu kreditlərə tələb var, bankların da prosesə maraqlı olması müsbət haldır. Ancaq ABŞ təcrübəsində 2008-ci ildə bir "ipoteka böhranı" da yaşandı. Ölkəmizdə bankların daxili ipoteka kreditlərini artırması gələcəkdə onlar üçün problem yarada bilərmi?

### 750 MİN MANATA QƏDƏR İPOTEKA KREDİTİ

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı deyir ki, bankların daxili ipoteka kreditlərini artırmasının bazara təsiri ciddidir: "Bankların daxili ipoteka kreditlərini artırması bütövlükdə daşınmaz əmlak - xüsusilə mənzil bazarını müəyyən qədər fəallaşdırıb. Əvvəllər ümumi mənzil alqı-satqısında dövlət ipotekasının payı təqribən 6-7 faiz civarında idi. Bankların bu prosesə qoşulmasından sonra ipoteka kreditləşməsinin ümumi mənzil alqı-satqısında payı 15 faizə çatdı. Kifayət qədər ciddi rəqəmdir".

R.Osmanlı bildirdi ki, məbləğ limitinin daha yüksək olması özəl ipotekanı daha cəlbedici edir: "Dövlət ipotekasının faiz və müddətlə bağlı şərtləri nisbətən daha əlçatandır, özəl ipotekada isə məbləğlə bağlı təkliflər daha cəlbedicidir. Bu səbəbdən özəl ipotekaya maraq göstərənlər də var. Dövlətin güzəştli ipoteksında maksimum faiz 4, adi ipotekada isə 8-dir. Bankların daxili ipotekalarında isə bu rəqəm 6 faizdən 12-13 faizə qədər dəyişir. Bundan başqa, adi ipotekada dövlətin ayırdığı maksimum rəqəm 150 min manatdır (güzəştli ipotekada isə bu məbləğ 100 min manat olaraq təsbit edilib). Özəl banklarda ipoteka üçün ayrılan məbləğlər 150-500 min, bəzi hallarda isə 750 min manat məbləğinə qədər də ipoteka kreditlərin verilməsi hallarına rast gəlinir. Vətəndaş rəqəmin böyüdüyünü əsas götürərək qismən yuxarı faizlə bankların daxili ipoteka kreditlərinə daha çox maraq göstərir".


Cəfər İbrahimli

### İŞSİZLİK VARSA, GƏLİRLƏR AZALIRSA...

Bank məsələləri üzrə ekspert Cəfər İbrahimlinin sözlərinə görə, bu tipli kreditlərin ödənişində o halda problem yaranır ki, iqtisadiyyatda mənfi tendensiyalar yaşansın: "İpoteka kreditləşməsi ilə bağlı dünyada ən ciddi problem elə 2008-ci ildə qeydə alınıb. İqtisadiyyatlarda ciddi şəkildə resessiya olur. İşsizlik və əhalinin gəlirlərinin azalması fonunda ipoteka ödənişlərində problemlər yaranır. Bu da bankların aktivlərinin, kredit portfelinin pisləşməsinə gətirib çıxarır".

C.İbrahimli bildirdi ki, banklar aktivlərinin yalnız bir hissəsini ipoteka kreditləşməsinə yönəldirlər. Ona görə bu istiqamətdə problem yaranması onların iflasına gətirəcək fakt deyil: "İpoteka krediti dünyada cəlbedici maliyyə alətidir. İnkişaf etmiş ölkələrdə belə ipoteka kreditləri ümumdaxili məhsulun təxmini 10 faizi həcmindədir. Azərbaycanda son dönəmdə belə tendensiya başlayıb. Buna tələb də var. Banklar risklərini ölçürlər. Yaxın gələcəkdə ipoteka kreditləri ilə bağlı ciddi problemlər olacağını təxmin etmirlər".

## "BANK ZİYANA GETMİR"

İqtisadçı Murad Calalov bildirdi ki, daxili ipoteka kreditləri banklar üçün gəlir mənbələrindən biridir: "Burada həm ilkin ödəniş, həm də faiz gəlirləri yüksəkdir. Müştəri ipoteka kreditini ödəməyəndə belə, bank xüsusi ziyana düşmür. Müştəri ya evi satıb bankın pulunu ödəyir, ya da əmlak bankın hesabına keçir".

M.Calalov qeyd etdi ki, ipoteka kreditləşməsinin indiki kimi çox olması hallarında ödənişlərdə problem yaranması ehtimalları da artır: "10 il öncə belə bir dönəm olmuşdu. Az qala şəxsiyyət vəsiqəsi ilə belə, evləri ipotekaya götürürdülər. Elə vəziyyət yarandı ki, insanların çoxu kreditini ödəyə bilmədi. Sonra qaydalar sərtləşdirildi. İndi də təqribən elə hal yarana bilər. İlkin və aylıq ödəniş azdır. Hər növ gəlir əldə edə bilən insanın marağını cəlb edir. Adam gəlirinə baxır, görür ki, evi götürməyə imkan verir. Evi alandan bir müddət sonra xərclər artır, inflyasiya böyüyür, ödəyə bilmir. Bu risklər də var".


Murad Calalov

## "BANKLARIN RİSK PROFİLİ NƏZARƏTDƏ SAXLANILIR"

Azərbaycan Mərkəzi Bankından bildirildi ki, qurum "Banklar haqqında" qanuna müvafiq olaraq bankların və xarici bankların yerli filiallarının maliyyə sabitliyini təmin etmək məqsədilə prudensial normativlər və tələblər müəyyən edir. Mərkəzi Bankın "Kredit riskləri, o cümlədən iri kredit riskləri ilə bağlı prudensial normativ və tələblərə dair Qayda"sında daşınmaz əmlak kreditləri (fiziki şəxslərə şəxsi istehlak məqsədi ilə daşınmaz əmlakın əldə edilməsi və ya tikintisi üçün verilən kredit) üzrə məcburi tələblər müəyyən edilib. Bu tələblər kreditin təminata olan nisbətinin (KTN əmsalı) maksimum həddinə və kreditləşmənin valyutasına dair tələblərdir.



KTN əmsalı kreditin ümumi məbləğinin (kredit müqaviləsi üzrə əsas borc və hesablanacaq faizlər) kredit üzrə təminatın bazar dəyərinə nisbətini ifadə edir və qaydaya əsasən, bankın bir borcalanının daşınmaz əmlak krediti üzrə kredit riskinin maksimum miqdarı (KTN əmsalı) mülkiyyətində yaşayış sahəsi olmayan fiziki şəxsə yaşayış sahəsinin alışı üçün verildikdə və həmin yaşayış sahəsinin ipotekası ilə təmin edildikdə 85%-dən, digər hallarda 70%-dən çox ola bilməz. Həmçinin, qaydaya əsasən, daşınmaz əmlak krediti yalnız milli valyutada verilir.

Mərkəzi Bank tərəfindən bankların risk profili mütəmadi nəzarətdə saxlanılır və risklərin səviyyəsindən asılı olaraq prudensial tənzimləmə çərçivəsinə dəyişikliklər edilir.

“BİZ ÇALIŞIRIQ Kİ, QOCALARLA VAXT KEÇİRƏN, SAĞLAMLIQ GÖSTƏRİCİLƏRİNİ YOXLAYA BİLƏN ROBOTLAR DÜZƏLDƏK”

# İNSANABƏNZƏR ROBOTLAR ÜZƏRİNDƏ ARAŞDIRMA APARAN AZƏRBAYCANLI

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

**Sonabəyim Hüseynzadə:** “Problem robotlarda deyil, insanlardadır. Robot sadəcə alətdir. Robotu idarə edən insandır. Düşünürəm ki, robotlarla işin tənzimlənməsi olmalıdır. Hansı qurum robotu hansı məqsədlə yaradır, nəzarət olunmalıdır. Yaxşı insan, pis insan olduğu kimi, yaxşı robot və pis robot da yaratmaq mümkündür”.

Ona ünvanlanan “əsas diplomdur, ixtisasın fərqi yoxdur”, “eybi yox, iş taparsan”, “oxuyub robot düzəldəcəksən?”, “qadın üçün əsas yemək bişirməyi bacarmaqdır” kimi sözlərə inad bu gün Almaniyada, Yaponiyada robotlarla bağlı tədqiqatlar aparır. Əzmi, özünə inamı ilə yaşıdlarından fərqlənir, üçüncü sinifdən bədii ədəbiyyat oxuyur. Düşünür ki, əgər xəyallarınıza mane olan insanlarla mübarizə apara bilmirsinizsə, onlardan uzaqlaşmaq lazımdır.

Müsahibimiz Almaniyada Siegen Universitetində və Yaponiyada Tohoku Universiteti (Sendai) və AIST mərkəzində (Tokio) insanoid robotlar üzərində tədqiqatçı işləyən həmyerlimiz Sonabəyim Hüseynzadədir.

Bakıda anadan olub. Elə məktəb vaxtından verdiyi suallarla, maraqlandığı sahələrlə, çox oxumağı ilə fərqlənib. Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Mexatronika və Robototexnika ixtisasına qəbul olub. Hazırda Almaniyanın Dortmund Texniki Universitetində robototexnika və avtomatika üzrə təhsilini davam etdirir, Siegen Universitetində robototexnika üzrə tədqiqatçı işləyir. Həmçinin, universitetdə professor köməkçisi kimi fəaliyyət göstərir, professorla birlikdə dərs keçir. Həmsöhbətimiz bununla yanaşı, İEEE Azərbaycanın “Xanımlar mühəndislikdə” proqramının direktorudur.



## “OXUMAQ MƏNƏ BƏS ETMİRDİ”

● **Sonabəyim xanım, beşinci sinifdə bir kitabxanaya məxsus bütün kitabları oxumusunuz. Bu yaşda kitab sevgisi necə yarandı?**

● Bəli, təhsil aldığım məktəbin yaxınlığında yerləşən Nazim Hikmət adına kitabxanada bütün kitabları oxumuşdum. Hətta o vaxt Mədəniyyət və Turizm Nazirliyi məni tədbirə dəvət edib, təltif etmişdi. Kitaba olan marağımı isə mənə anam aşılayıb. Uşaq vaxtı çox suallar verirdim. Suallarıma cavab tapmaqda çətinlik çəkir, hətta öz yaşıdlarımla da söhbət edə bilmirdim. Çünki onların maraqları tam fərqli idi. Anam bir gün mənə dedi ki, çox sual verirsən, bəlkə suallarına cavabları kitablarda axtarasan? Kitablarla tanış oldum və çox maraqlı gəldi. Uşaq vaxtı nəyi görürdümsə, oxumaq istəyirdim. Bu, məndə tələbata çevrilmişdi. Bədii əsərlərə yanaşı, hər fənnin əlavə vəsaitlərini də alırdım. O qədər suallarım var idi ki, oxumaq bəs etmirdi.

> *İnsan var ki, 40 yaşında hədəfini müəyyənləşdirir. Bu, yaşdan asılı deyil. Amma “vaxtım var, sonra düşünərəm” kimi yanaşma da düz deyil. Vaxt həmişə azdır.*





● **Maraqlıdır, kitablarda suallarınıza cavab tapırdınızmı?**

● Bəli, tapırdım. Hər kitab mənə insanları, həyatı öyrədirdi. Suallarımı böyüklərdən soruşanda, mənə uşaqsan deyib yola verirdilər. Hətta narahat olurdular ki, sənə bu haqda kim danışıb? Fərqli reaksiyalar alırdım. Kiminsə fikirlərimi mühakimə etməsindən çəkinirdim. Kitab oxuduqca anladım ki, biz çox zaman özümüzdən qaçırıq. İnsanlar var ki, həyatı sorğulayır, insan da var ki, bu barədə düşünmür. Mən həyatı daim sorğulayır, cavablarımı böyüklərdən yox, kitablardan alırdım.

## “İDEYAN VARSA, NƏ İSTƏSƏN YARADA BİLƏRSƏN”

● **Mexatronika və robototexnika mühəndisliyini seçdiyiniz üçün qınaqlarla üzləşmisiniz. Hətta bu ixtisasa qəbul olduqda, sizi təsəlli belə ediblər. Bəs nə üçün mexatronika?**

● Universitetə qəbul olduğum il tələbələr daha çox kompüter mühəndisliyi, neft sahələrinə yönəlirdi. Bu, mənə maraqlı deyildi. Mexatronika haqqında internetdə araşdırdım, gördüm ki, böyük potensialı var. Həm də işimdə azadlığı sevirəm və protokolla çox hərəkət edə bilmirəm. Ona görə də tədqiqatçılığı seçdim. Robototexnika sahəsində isə azadlıq çoxdur. İdeyan varsa, nəzəriyyəni yaxşı anlaya bilirsənsə, nə istəsən yarada bilərsən. Yadımdadır, mexatronikanı seçəndə müəllimlərim belə “Sona, heyf sənin başından, robot düzəldəcəksən?” kimi sözlər dedilər. Bəziləri də, “eybi yox, əsas diplom olsun”, deyə təsəlli verirdilər. İnsanlar mexatronikanı bir sahə olaraq qəbul etmirdilər. Müəyyən vaxtdan sonra bu inamsızlığa öyrəşdim. Nə qədər mənə inanmırdılarsa, bir o qədər də motivasiya alırdım.

● **Bəs bir an da olsa “müəllimim deyirsə, düz deyir” düşüncəsində oldunuzmu?**

● Xeyr. Özümə, fikirlərimə güvənirdim. Məsələn, məktəbdə oxuyanda direktora demişdim ki, məktəbi düzgün idarə etmirsiniz. Uşaq vaxtı hər yerdə problem gördüyüm üçün böyüklərə çox da inamım yox idi. Kimsə mənə deyəndə ki, filan şey səhvdir, mütləq onu özüm araşdırır, sonra səhv, yaxud düz olması qənaətinə gəlirdim. Ona görə də böyüklər ixtisasımı məsləhət bilməyəndə, deyirdim ki, ola bilər ki, hazırda belə düşünürsünüz, amma mən bu sahə üzrə ən yaxşısı olacağam. Məncə, ixtisas seçərkən “buradan nə qədər qazanacağam” deyil, “bu sahəyə nə verə biləcəyəm” haqqında düşünməliyik. Mənə bildiyim sahə yox, əksinə, bilmədiyim sahə çox maraqlı idi.

## “SƏN QIZSAN, ÖZÜNÜ QIZ KİMİ APARMIRSAN”

● **“Qadınlar mühəndislikdə” proqramından danışaq. Yəqin ki, özünüz peşə ilə bağlı baryerlərlə rastlaşdığınız üçün qadınlara kömək etmək istədiniz.**

● Bəli, mən qadın olduğum üçün əziyyət çəkmişəm. Çünki həmişə “sən qızsan, özünü qız kimi aparmırsan”, “qızsan, bunu etməlisən” kimi sözlər eşitmişəm. Hətta özümə nifrət etdiyim anlar da olub. Çünki qadın olduğum üçün, xüsusilə də öz ixtisasımla bağlı məni zəif görürdülər. Sonra öyrəndim ki, bu cür münasibətlə tək mən deyil, çox qadın qarşılaşır. Daha dəhşətlisi də odur ki, sən mühəndissən, amma iş yerində ciddi mühəndislik işlərini sənə vermirlər. Sən işində də başqa işlərlə məşğulsan. Sanki qadınsan, bu sahəni bilməzsən kimi yanaşırlar. Mən bundan sonra nəyisə dəyişməyə çalışdım. Düşündüm ki, bu sahədə işləyən, oxuyan qadınları bir yerə toplayım, fikir mübadiləsi aparsınlar və bacaracaqlarını göstərsinlər. Ona görə “Qadınlar mühəndislikdə” istiqamətini proqram olaraq yaratdım.

Sonra öyrəndim ki, dünyada da bu problem var və mərkəzi ABŞ-də yerləşən, müxtəlif regionlarda filialları olan “Qadınlar mühəndislikdə” proqramı var. Oraya üzv olduq və direktor seçildim. Hazırda ADA Universiteti ilə çalışır, tələbələrlə görüşlər keçiririk. İnanıram ki, zaman keçdikcə, belə fikirlər aradan qaldırılacaq, yanaşmalar dəyişəcək. Təəssüf ki, bu yanaşma xanımların əzmini, istəyini məhv edir.

● **Peşənin cinsi ilə bağlı stereotiplər necə qırılmalıdır?**

● Mən düşünmürəm ki, qadınla kişi eynidir. Fizioloji cəhətdən biz tamamilə fərqliyik. Amma bacarmaq istədiyin iş fiziologiyanda problem yaradırsa, ondan imtina etməyə yenə də özün qərar verməlisən. Fərd olaraq, insan öz seçimini etməlidir və nə üçün seçdiyini anlamalıdır. Mühəndislik, proqramlaşdırma sahələrində isə sən daha çox beyinlə düşünürsən, bu sahədə fizioloji problem də yoxdur. Biz tarixə nəzər salsaq, ilk proqramlaşdırma dilini də qadın yazıb, “Wİ-Fİ”-ın də layihəsini qadın yaradıb. Amma yenə də bu sahəni kişilərə “yaraşdırırlar”. Maarifləndirmə və qadınların bacarıqlarını sübut etməklə stereotipləri qıra bilərik. 21-ci əsrdə peşənin cinsindən danışmaq, qadın, kişi peşələri kimi kateqoriyalara ayırmaq gülüncdür.

● **Bu gün Azərbaycan qızlarının ən böyük baryeri nədir?**

● Düşüncə tərzləri. Əgər ətrafındakı insanlar səni sıxma-boğmaya salırlarsa, özünü günahlandırmaq lazım deyil. Sən bununla mübarizə aparmalısan. Təslim olmaq olmaz. İnsanlar rahata qaçmağa meyillidir. Problem görəndə dayanır, yollarını dəyişmək istəyirlər. Xəyallarınıza mane olan insanlardan uzaqlaşmaq lazımdır. Ailədə də uşaqlıqdan öz fikrini açıq deməyi bacarmaq lazımdır.

## “İNSANLARLA DOST OLACAQ ROBOTLARI ARAŞDIRIRIQ”

● **Sonabəyim xanım, mübarizə ilə nail olduğunuz peşənizdən danışaq. Tədqiqat işiniz əsasən nə ilə bağlıdır?**

● Almaniyada robototexnika üzrə tədqiqatçı olaraq çalışır, professor köməkçisi kimi fəaliyyət göstərirəm. Həmçinin tədqiqatçı olaraq beynəlxalq layihələrdə iştirak edir, Yaponiya, Avropa ölkələri ilə əməkdaşlıq edirik. Hazırda robototexnikanın “Humanoid Robotics” istiqamətində çalışıram. Yəni insanabənzər robotlar hazırlayırıq. “Bu robotlar cəmiyyətə necə inteqrasiya ola bilər” kimi suallar ətrafında tədqiqatlar aparırıq. Daha çox yaşlı insanlarla çalışırıq, çünki Almaniyada, Yaponiyada yaşlı insanların sayı ildən-ilə artır, onların təklik problemləri yaranır. Yaşlıların ətrafında çox vaxt ailələri olmur. Biz çalışırıq ki, onlarla vaxt keçirən, sağlamlıq göstəricilərini yoxlaya bilən robotlar düzəldək.

● **Yəni robotlar onlarla dostluq edəcək...**

● Üzərində işlədiyim robot “actroid f”dir. İlk baxışdan insana çox bənzəyir. Ancaq robotdur. İnsanlarla söhbət edir, onun həyatı haqqında danışır, ona dəstək ola, həmçinin vacib informasiya olanda onu nəzərə ala bilir. Məsələn, Yaponiyada insanlar özlərinə qəsd etməyə daha meyillidirlər. Onların bu addımı atmamasına robot kömək edir. Robotla danışdıqca, problemi hiss edir, onu dinləyir və fikrindən daşındır-mağa çalışır.


İNSANABƏNZƏR ROBOT

## PROBLEM ROBOTLARDA DEYİL, İNSANLARDADIR



● **Robotların cəmiyyətə inteqrasiyası üzrə tədqiqatlar aparırsınız. İnsanların bəziləri robotların həyatımızı ələ keçirəcəyini, bizə zərər verəcəyini düşünür. Bəs mütəxəssis olaraq siz necə düşünürsünüz?**

● Problem robotlarda deyil, insanlardadır. Robot sadəcə alətdir. Robotu idarə edən insandır. Nifrəti də ona insan ötürür, sevgini də. Adi qələmdən yazmaq üçün də istifadə etmək olar, kiməsə xəsarət yetirmək üçün də. Ona görə düşünürəm ki, bunun tənzimlənməsi olmalı, diqqətlə izlənməlidir. Hansı qurum hansı məqsədlə yaradır, nəzarət olunmalıdır. Yaxşı insan, pis insan olduğu kimi, yaxşı robot və pis robot da yaratmaq mümkündür.

● **“Həyatda vacib bacarıqlardan biri hədəfini müəyyənləşdirməkdir” demisiniz. Sizcə, hədəfi müəyyənləşdirməyin yaşı varmı?**

● Xeyr, yaşın önəmi yoxdur. Uşaqlıqda mənə araşdırmaq, suallarıma cavab tapmaq maraqlı idi. Böyüdükdə də ardınca getdim, indi tədqiqatçıyam. Amma insan var ki, 40 yaşında hədəfini müəyyənləşdirir. Bu, yaşdan asılı deyil. Amma “vaxtım var, sonra düşünərəm” kimi yanaşma da düz deyil. Vaxt həmişə azdır. Düşünürəm ki, hədəf də ancaq karyera üzərində qurulmamalıdır. Yaşamağı da unutmaq lazım deyil. Ancaq karyera dalınca qaçıb özünü unutmağı düzgün qəbul etmirəm.

● **Həm oxuyur, həm işləyirsiniz. Boş vaxtlarınızda da sosial şəbəkələrdə insanları maarifləndirməyə, onların suallarına cavab verməyə çalışırsınız. Nə üçün?**

● Öyrəndiklərimi paylaşmağı sevirəm. Bu, məktəbdə də belə olub, universitetdə də. İlk dəfə Almaniyaya gedəndə də tələbələri xaricdə oxumaqla bağlı məlumatlandırır, çətinliklərini deyirdim ki, buna hazır olsunlar. Mən özüm də araşdırma etmişəm, insanlar təcrübələrini paylaşıblar. Təcrübəli adamla danışdıqda onlar sənə yol göstərdikdə arzularını reallaşdırmağa bir addım da yaxınlaşırsan. Çünki qarşında sənin istədiyini bacaran real insan təcrübəsi olur. Ona görə tələbələrin arzularını reallaşdırmaq üçün əlimdən nə gəlirsə, etməyə çalışıram.

# "HEYVANDARLIQ ARTIQ RENTABELLİ DEYİL"

Xaricdən həm ət idxalımız, həm də ixracımız əvvəlki illərlə müqayisədə xeyli artıb. Xaricə daha çox at əti satıb, ölkəyə isə daha çox ətlik heyvanlar idxal edirik.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az




Foto: Səbinə Şəbiyeva/Global Media Group

Dövlət Gömrük Komitəsi xəbər verir ki, 2024-cü ilin yanvar ayında Azərbaycana 8 milyon 542 min ABŞ dolları dəyərində 4 min 410 ton ət idxal olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə idxal edilən ətin həcmi 63.8 faiz və ya 1 718 ton, dəyəri isə 75 faiz və ya 3 milyon 660 min dollar artıb. Həmçinin cari ilin yanvarında Azərbaycan 32.66 min ABŞ dolları dəyərində diri heyvan ixrac edib. Bu isə dəyər ifadəsində ötən ilin müvafiq dövrü ilə müqayisədə 15.1 faiz daha çox deməkdir. Yanvarda ölkəmizə 3 634.65 min ABŞ dolları dəyərində diri heyvan idxal edilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə dəyər ifadəsində 43.9 faiz artım deməkdir. Ölkəmizə ət idxal olunması normaldır. Amma burada bir sual yaranır. Ölkəmizdə ətin qiymətinin bahalaşması fonunda digər ölkələrə ət və diri heyvan ixracı nə dərəcədə doğrudur?

**ƏTLİK HEYVANLARI İXRAC ETMİRİK**

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadənin sözlərinə görə, xarici ölkələrə ixrac etdiyimiz diri heyvanlar istifadəyə yararsızdır: "Ölkəmizdə təsərrüfatlardan çıxdaş olunmuş yük atları mövcuddur. Çıxdaş olunduqdan sonra sahibkarlar onları Orta Asiya respublikalarına ət məhsulu olaraq ixrac edirlər. Statistikada qeyd olunan diri heyvanlar dedikdə həmin yük atları nəzərdə tutulur. Yəni bizim ixrac etdiyimiz ətlik heyvanlar öz istifadəmiz üçündür. Amma ölkəmizə müxtəlif növ ətlik heyvanlar idxal edilib".

Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, həqiqətən də ölkəmizə müxtəlif növ iri və xırda buynuzlu heyvanlar idxal edilsə də, ixrac olunmayıb: "Safqanlı cins diri iribuynuzlu ev heyvanları, düyələr, inəklər 5653 ədəd, digər diri iribuynuzlu heyvanlar 86 520 ədəd, diri qoyunlar 320 543 ədəd, iribuynuzlu heyvan əti, təzə sümükdən ayrılmamış 920 ton, sümükdən ayrılmış 12 ton, cəmdəklər və şaqqalar 46 ton, dondurulmuş və sümükdən ayrılmamış 1137 ton, sümükdən ayrılmış yarımşaqqalar 6022 ton, donuz əti və dondurulmuş digər hissələri 1276 ton idxal edilib. Diri atlar 2793 ədəd, təzə və dondurulmuş ət 14 ton ixrac edilib".



Firdovsi Fikrətzadə

## Müxtəlif məqsədlərlə ixrac edilməsi mümkündür

İqtisadçı Pərviz Heydərovun fikrincə, ət ixracımız ərəb ölkələrinə və Rusiyaya da ola bilər: "Kənara ət, xammal satmırıq. Yalnız diri çəkidə heyvan satışı həyata keçiririk. Diri çəkidə ölkəmizdən xaricə heyvan ixracı ərəb ölkələrinə və Rusiya istiqamətində ola bilər. Ərəb ölkələrində səhralıq, qumluq sahələr çoxluq təşkil etdiyi üçün digər ölkələrdən örüş sahələrini icarəyə götürürlər. Qoyun, mal-qara ehtiyaclarını ödəyə bilirlər. Ərəb ölkələri Yeni Zelandiya kimi ölkələrdən örüş sahələri icarəyə götürürlər. Oraya öz heyvanlarını göndərirlər, onlara qulluq olunur, sayı artırılır. Beləliklə, ölkənin ətə olan ehtiyacını da ödəmiş olurlar".

**ÖRÜŞ SAHƏLƏRİ AZALIB, YEM BAHALAŞIB**

Ekspert bildirdi ki, hazırda öz tələbatımızı da ödəməkdə çətinlik çəkirik: "Azərbaycanın heyvandarlıq sahəsində vəziyyəti bir neçə il bundan öncə ilə müqayisədə mənfiyə doğru dəyişib. Örüş sahələri azalıb, yem bahalaşıb. Artıq fərdi şəkildə heyvanların saxlanılması, heyvandarlıq təsərrüfatı ilə məşğul olmaq tamamilə aradan qalxmaq üzrədir. Fermer təsərrüfatlarında da vəziyyət qeyri-qənaətbəxşdir. Ümumiyyətlə, hazırda ölkədə heyvandarlıqla məşğul olmaq rentabelli və səmərəli deyil. Bu da özünü ölkəyə ət idxalının artması ilə büruzə verir. Halbuki bir neçə il öncə biz bu sahədə tələbatımızı 90-95 faiz həcmində ödəyə bilirdik. Bununla əlaqədar həyəcan təbili çalmaq lazımdır".

### BU ƏTLƏR KEYFİYYƏTSİZDİR

P.Heydərov qeyd etdi ki, yaxın zamanda ət istehsalı sahəsində də xarici ölkələrdən asılı vəziyyətə düşə bilərik: "Bir ara pambıqçılığın, taxılçılığın, tütünçülüyün inkişafı ilə bağlı müəyyən genişmiqyaslı tədbirlər həyata keçirildi. Bunlar da örüş sahələrinin azalmasına gətirib çıxarıb ki, heyvandarlığı ciddi zərbə altında qoyur. İndi də bunun acı nəticələrini hiss edirik. İdxalın genişlənməsi təbiidir. Çünki yerli tələbatı ödəyə bilmirik. Kənardan gətirilən ət məhsulları maya dəyəri və qiymət baxımından ucuzdur. Çünki bu ətlər keyfiyyətsizdir. Odur ki, bütün bu məqamlara diqqət artırılmalıdır".



Pərviz Heydərov

Kaspi ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
Global Media Group
Baş redaktor
İlham Quliyev
Redaksiya
Baş redaktorun müavini - Azad Əliyev
Müxbirlər – Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı
Müəlliflər – Azər Nuriyev, Xanım Aydın, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov
Korrektor – Vüsal Əliyev
Texniki şöbə
Kreativ direktor – Murad Arbay
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov
Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 501
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# "VƏTƏN XAİNİ" olanların muzeyi

Təəssüf ki, repressiya qurbanları tək şairlər, yazıçılar, alimlər deyildi. Xanımları da bu müsibətin bir parçası olublar. Onlara deyirdilər ki, ərin vətənə xəyanət edəndə xəbər verməmisənsə, deməli, sən də xainsən!


HAZIRLADI
XANIM AYDIN

Aydın səma, bərpa olunan suverenlik, məsud dalğalanan üçrəngli bayraq... Bu gün bunların, bəlkə də daha çox qədrini bilməliyik. Daha çox öpüb gözümüzün üstündə saxlamalıyıq. Çünki zaman axınının əksinə üzsək, bu günə, bu müstəqilliyə gələn yolun kökünün necə dərinliklərdə olduğunu görəcəyik. Bu düşüncələrlə Zərifə Əliyeva küçəsi ilə Dövlət Sərhəd Xidmətinin inzibati binasında fəaliyyət göstərən "Siyasi Repressiya Qurbanları Muzeyi"nə - ömürlərini Vətənə qurban edən insanlara "vətən xaini" damğası vurulan yerə gedirik.

### MÜŞFİQLƏRİN, CAVİDLƏRİN ŞAİR RUHUNUN İNCİDİLDİYİ YER

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təşəbbüsü ilə yaradılan bu muzeyin girişində bizi muzeyin rəisi Mirabbas Məmmədov qarşılayır, elə muzey haqqında məlumatı da o verir. Tacir Hacı Hacıağa Dadaşova məxsus bu bina 1878-ci ildə tikilib və burada müxtəlif şirkətlərin anbarları, nümayəndəlikləri fəaliyyət göstərib. Bina 1920-ci ildə dövlətin balansına keçib, 1925-ci ildən isə Azərbaycan Fövqəladə Komissiyasına (AzÇK) verilib. Xalq Daxili İşlər Komissarlığının (NKVD) daxili həbsxanası olan binanın zirzəmisi isə (muzeyin yerləşdiyi) sovet qanunlarının boğmağa çalışdığı minlərlə insanın sorğu-sual edildiyi, işgəncə verildiyi, sürgünə göndərildiyi və ən nəhayət, amansızcasına güllələndiyi yerdir. Müşfiqlərin, Cavidlərin, Əhmədlərin şair ruhunun incidildiyi, qürurlarının yenilmədiyi, amma, bəlkə də son nəfəslərini verdiyi yerdir.

### ƏL BOYDA İŞIQ DÜŞMƏK EHTİMALI OLAN PƏNCƏRƏLƏR

Böyük bir zindanı xatırladan zirzəminin hücrəyə bənzər ayrı-ayrı otaqlarında qanlı-ağrılı repressiya dövrü qurbanlarını andıran eksponatlar var. Balaca, dar, birnəfərlik kameralar... Qapıları elə həmin dövrdən qalmadır. Balaca, açılanda bir əl boyda işıq düşmək ehtimalı olan pəncərələri var qapıların. Kim bilir kimlərin üzünə bağlanıb, kimləri dustaq edib bu tarixi özündə saxlayan qapılar?! Kim bilir kimlərə hansı insanlığa sığmayan, dəhşət sözündən daha da dəhşətli olan işgəncələr verilib bu kameralarda?! Düşündükcə, baxdıqca adamın ruhu ruhluqdan çıxır. Adam yerlə göy arasında daşa dönür, qandala dönür, dəmir barmaqlığa dönür, edam ağacına dönür burada. Amma eyni zamanda, burada azad olmağın qiymətini daha çox bilirsən.

Muzeyin "Dindirilmə otağı" adlanan guşəsində Hüseyn Cavidi xatırladan maketi görüncə ağlımıza bu misra gəldi. Cavid burada sanki "iblis" tərəfindən dindirilir. O dövrə aid əşyalar az olsa da, ab-havası tam şəkildə adamı 1937-ci ilə atır. Mirabbas müəllim Cavidlə bağlı qaranlıq məqamların olduğunu qeyd edir: "1939-cu il iyunun 9-da Cavidin 8 il müddətinə həbs edilməsi ilə bağlı qərar çıxarılıb. Cavidin 1941-ci ildə Maqadanda olduğunu göstərən sənədlər var. 1941-ci ilə qədər onun cəzasını harada çəkməsi bəlli deyil. Ümumiyyətlə, onlarla bağlı sənədlər, qeydlər çox azdır".

### DAŞ DİVARLAR ARASINDA BOĞULAN GÜLLƏ SƏSLƏRİ

Zirzəmin lap dərinliyində iç-içə otaqlardan ibarət, digərlərindən nisbətən geniş kamera var. Mirabbas müəllim deyir ki, buranı muzey üçün təmizləyib hazırlayanda torpaqda qan izləri olub. Ona görə də, buranın güllələnmə kamerası olduğu ehtimal edilir. Allah bilir bu daş divarlar, bu daş tavan, bu daş döşəmə nə qədər qəddar insan baxışlarının, əmrlərin, atəş səslərinin, insan fəryadlarının, əbədi yumulan gözlərin, boğulan mədəniyyətin, ədəbiyyatın, elmin şahidi olublar. Bəlkə də içlərinə yığılan kədərdən, qəzəbdən qalınlaşıb bu divarlar belə. Kamera təmizlənəndən sonra buraya molla, keşiş, ravvin dəvət olunub. Hər üçü öz dininə uyğun qətlə yetirilənlərin ruhuna dualar oxuyublar. Qan izləri olan torpaq parçası isə simvolik olaraq Nargin adasında dəfn edilib. Burada eksponat kimi qoyulan, üstünə silah tuşlanan maket isə şair Mikayıl Müşfiqi andırır.

Muzeydə köhnə çamadanlardan ibarət, yerdən tavanacan qalxan kompozisiya var. Bəzilərinin ağzı açılıb, içərisindən şəxsi əşyaları da tökülür sanki. Bu, rəmzi bir kompozisiyadır. Sanki ömürlərini yaşaya bilməyən insanların göyə sovrulan ümidləridir bu çamadanlar. Hərəsi bir insan taleyini ehtiva edir özündə.

Təəssüf ki, repressiya qurbanları tək şairlər, yazıçılar, alimlər deyildi. Onların xanımları da bu müsibətin bir parçası olublar. Onlara deyirdilər ki, ərin vətənə xəyanət edəndə xəbər verməmisənsə, deməli, sən də xainsən! Komissarlığın 00485 saylı əmrinə görə isə "vətən xainləri"nin həyat yoldaşları heç bir məhkəmə, araşdırma, istintaq olmadan 5-8 il müddətinə sürgün olunmalı idilər. Onlar əsasən Rusiyaya, Qazaxıstana göndərilirdilər.





Fotolar: Sabir Məmmədov/Global Media Group

## İnsan ölümünə qoyulan plan

SSRİ-nin iqtisadiyyatı planlı iqtisadiyyat idi, istehsalata limit qoyulurdu, deyir muzeyin rəisi: "Dəhşətlisi budur ki, repressiyaya da bu yanaşma tətbiq olunub. Moskvanın 1937-ci il 30 iyul 00447 saylı əmriylə SSRİ-nin tərkibində olan bütün ölkələrə 4 ay ərzində güllələnməli və sürgünə göndərilməli olan insanların sayı ilə bağlı limit qoyulub. Bu plana əsasən, Azərbaycanda 1500 insan güllələnməli, 3700 insan isə sürgün olunmalı idi. Bağırov 7250 nəfəri repressiya qurbanı edərək bu planı artıqlaması ilə yerinə yetirib".

## Muzey canlı orqanizmdir

Mirabbas müəllim onu da deyir ki, muzey canlı orqanizmdir. Onlar muzey üçün yeni eksponat və məlumatların axtarışını indi də aparırlar. Amma təəssüf ki, çox az şəxsi əşya əldə etmək olur. Çünki o adamların yaxınları da özlərində həmin şəxslərin sənəd, foto, kitab, cib dəftərçəsini saxlamağa qorxurdular. Həm də həbs vaxtı hamısı evlərindən maddi sübut kimi götürülür, sonra da yandırılırdı. Bundan başqa, kollektiv fotolarda həbs edilənlər varsa, fotoda onların üzünü qaraldır və ya ümumiyyətlə kəsib çıxarırdılar. Buna görə həmin dövrə aid fotolar, sənədlər, məlumatlar olduqca azdır.

Muzeydən çıxırıq, səmaya baxıb dərindən nəfəs alırıq. Dilimizdə Əhməd Cavadın "Üç rəngli bayrağınla məsud yaşa!" misraları...

PİLOT LAYİHƏLƏRİN VAXTINDA TƏHVİL VERİLMƏMƏSİNİN YOL AÇDIĞI PROBLEMLƏR

# Şirkətin pulu gedir, VƏTƏNDAŞIN ÖMRÜ

Yaşayış binaları ilə bağlı bəzi pilot layihələri həyata keçirən şirkətlərdən narazılıqlar var. Bəzən bu şirkətlər tikdikləri binaları vətəndaşlara söz verdikləri vaxtda təhvil verə bilmirlər.





ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Bakıda bir çox istifadəyə yararsız, köhnə tikililər sökülür, onların yerində yeni çoxmərtəbəli binalar inşa edilir. Bu işlər pilot layihələr çərçivəsində aparılır. Adətən tikinti şirkətləri sökülən tikililərdə yaşayan sakinlərlə müqavilə imzalayırlar və onları yeni bina tikilənə qədər kirayə pulu ilə təmin edirlər. Lakin bəzi hallarda tikinti şirkətləri binanı söz verdikləri vaxtda təhvil verə bilmirlər. Bu zaman tikinti şirkətləri və vətəndaşlar arasında narazılıqlar yaranır. Bəs görəsən binaların vaxtında təhvil verilməməsinin səbəbi nədir? Bu halla üzləşən vətəndaş hüquqlarını necə qoruya bilər?

### BİR İLDƏ 2 MİLYON 400 MANAT KİRAYƏ PULU

Daşınmaz əmlak eksperti Ramil Osmanlının sözlərinə görə, tikintinin uzanması sadəcə vətəndaş üçün deyil, həm də şirkət üçün əlavə xərcdir: "Layihənin gecikməsində heç bir tikinti şirkəti maraqlı deyil. Çünki tikinti şirkəti həm də köçürüləcək sakinlərin tikinti prosesi müddətində kirayə mənzillə təmin olunmasını öhdəlik olaraq üzərinə götürür. Əgər layihə iki il müddətinə bitməlidirsə və tikinti şirkəti vətəndaşlara hər ay ən azı 100 min manat kirayə haqqı ödəyirsə, bu o deməkdir ki, bir il ərzində 2 milyon 400 manat kirayə öhdəliyi yaranır. Bu vəsait hesabına şirkət tikintinin müəyyən bir hissəsini həyata keçirə bilər. Bu məbləğ nağd pul şəklində ödənilir və heç bir halda gecikdirilə bilməz".

R.Osmanlının sözlərinə görə, tikinti şirkəti şəhərsalma əsaslandırılmasını təqdim edərkən, layihədə müəyyən yanlışlığa yol verir: "Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilkin mərhələdə tikinti şirkətinə ərazidə 5 bloklu 14 mərtəbəli layihəyə icazə verir. Amma sonra layihə hazırlanıb təqdim edilən zaman məlum olur ki, ərazi üzrə sıxlıq əmsalları, yaxud paytaxtın Baş planı buna imkan vermir. Yenidən blokun sayını, yaşayış mərtəbələrini azaldırlar. Bu halda tikinti şirkətinin əlavə öhdəlikləri yaranır".



Ramil Osmanlı

## BƏZİ SAKİNLƏR KÖÇMƏK ÜÇÜN BÖYÜK MƏBLƏĞ İSTƏYİRLƏR

Ekspert bildirdi ki, sakinlərin köçürülməsi də tikinti şirkətlərinə problemlər yaradan məsələdir: "Tikinti şirkətləri sakinləri zorla ərazidən köçürə bilməz. Bu proses qanunvericiliyin tələblərinə uyğun şəkildə həyata keçirilməlidir. Sakinlərin də bəziləri köçmək müqabilində 1-2 milyon manat istəyirlər və digər halda köçməyəcəklərini bildirirlər. Tikinti şirkəti sakini köçürməkdə problem yaşayır və çıxılmaz vəziyyətdə qalır. Bu proses bir il uzanırsa, bir sakinə görə digər şəxslərə də kirayə pulu ödənməlidir. Sakin çıxmadıqda isə məcburdur məhkəməyə müraciət etsin. Bu da əlavə xərcdir".

### ƏSAS SƏBƏB QANUNVERİCİLİKDƏKİ BOŞLUQLARDIR

Ekspert bildirir ki, bu cür problemlərin əsas səbəbi qanunvericilikdəki boşluqlardır: "Bəzən İcra hakimiyyəti, qurumlar biri digərinin verdiyi icazənin düzgün və ya əsaslı olmadığını əsas gətirərək, növbəti mərhələdə müvafiq sənədlərin verilməsindən imtina edir və yaxud prosesi gecikdirir. Bu cür problemlər də məsələnin uzanmasına gətirib çıxarır. Nəticə etibarilə həm vətəndaşlara, həm tikinti şirkətlərinə zərbə dəyir".

### OBYEKTİV VƏ SUBYEKTİV SƏBƏBLƏR

Vəkil Anar Ramazanov bildirdi ki, bu kimi problemlər əvvəlki illərdə daha çox yaşanırdı: "Tikinti şirkətləri evi bir çox hallarda vaxtında təhvil vermirdi. Bunun da obyektiv və subyektiv səbəbləri olurdu. Obyektiv səbəblər odur ki, dövlət qurumları bəzən layihələrə düzəliş edir yaxud dəyişdirirdi, bəzi hallarda tikintiləri müəyyən pozuntulara görə müvəqqəti dayandırırdı. Subyektiv hallar isə budur ki, tikinti şirkətləri bir çox hallarda öz maliyyə resurslarını düzgün qiymətləndirmirdi, vətəndaşlara əsassız sözlər verirdi və binanın tikintisi vaxtında yekunlaşmırdı".

A.Ramazanovun sözlərinə görə, vətəndaşlar aldanmamaq üçün tədbirli olmalıdır: "Vətəndaşlar şirkətlə bağladıqları müqavilədə hüquqi müddəaların olub-olmamasına diqqət etməlidirlər. Evin nə zaman və hansı şəkildə təhvil verilməsinə, dövlət tərəfindən istismara qəbul olunub-olunmamasına, müvafiq kommunal xidmətlərin quraşdırılmasına xüsusi fikir verməlidirlər. Əgər mənzil vaxtında təhvil verilməzsə, binanı tikən şirkətə hansı hüquqi məsuliyyət tətbiq oluna bilər, bu da müqavilədə əks olunmalıdır".

### FƏRQLİ İDDİALARIN QALDIRILMASI MÜMKÜNDÜR

Hüquqşünasın fikrincə, bu halda tikinti şirkətləri məsuliyyətə cəlb olunur: "Əgər bina vaxtında təhvil verilməzsə, vətəndaşın hüququ var ki, Mülki Məcəllədə göstərilən qaydada dəymiş zərəri şirkətdən tələb etsin. Yəni, kirayədə qalıbsa, artıq qaldığı kirayə pulunu istəsin. Yaxud müəyyən hallarda müqavilənin tamamilə pozularaq əvvəlki mənzilinin bazar qiyməti ilə dəyərinin ödənilməsini tələb edə bilər. İşin hallarından asılı olaraq, bir neçə fərqli iddiaların qaldırılması da mümkündür. Hansı məbləğdə cərimə kəsiləcək? Nə qədər maddi məsuliyyət daşıyacaq? Bunu işin hallarından, vətəndaşa dəymiş ziyanın məbləğindən asılı olaraq, məhkəmə müəyyən edir. Bu kimi hallarda tikinti sahiblərini əsasən mülki məsuliyyət gözləyir. Əgər tikinti şirkəti mənimsəmə və israfetməyə, özbaşınalığa, vəzifə səlahiyyətlərindən sui-istifadəyə yol verərsə, bu zaman artıq vəzifə və korrupsiya cinayətlərinə görə, həmin şirkət rəhbərlərinin cinayət məsuliyyəti meydana çıxır".



Anar Ramazanov



## SOCAR-DAN “XALİS SIFIR” HƏDƏFİ

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) əsas məqsədlərindən biri 2050-ci ilə qədər “xalis sıfır” (Net Zero) hədəflərinə çatmasıdır. “Report”un SOCAR-a istinadən verdiyi məlumata görə, bu barədə SOCAR prezidenti Rövşən Nəcəf və BP-nin strategiya və davamlılıq üzrə icraçı vitse-prezidenti Culia Kerkia (Ciulia Çierçia) ilə görüşündə bildirilib.

Görüşdə cari il COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı yekdil qərarın beynəlxalq ictimaiyyətin ölkəmizə olan yüksək etimadının göstəricisi olduğu vurğulanıb.

Ötən ilin dekabrında SOCAR və BP şirkətləri arasında ətraf mühitin mühafizəsi sahəsində birgə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə dair imzalanan anlaşma memorandumunun əhəmiyyəti qeyd olunaraq, bu istiqamətdə görülən işlər nəzərdən keçirilib.

SOCAR-ın ekoloji sahədə fəaliyyəti, orta və uzunmüddətli perspektivdə emissiyaların azaldılması ilə bağlı müəyyənləşdirilən hədəfləri barədə məlumat verilib, hasilat prosesində məşəldə yandırmaların sıfıra endirilməsinin, emissiya intensivliklərinin azaldılmasının, “sıfır metan” hədəflərinə çatmanın şirkətin əsas məqsədlərindən olduğu bildirilib.

Tərəflər, həmçinin enerji keçidi və qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparıblar.

# TURİZM SƏNAYEMİZ NOVRUZA NECƏ HAZIRLAŞIR?

Ölkədəki beşulduzlu hotellər hələ ki, bayram günləri üçün satış etmir və gözləmə mövqeyindədir. Bununla belə, vətəndaşların seçim imkanları çoxdur. Regionlarda alternativ yerləşdirmə vasitələrinin təklifləri artmaqdadır.



Bu ay Azərbaycanda Novruz bayramı qeyd olunacaq. Hər il olduğu kimi, bu il də bayramla əlaqədar ölkədə bir neçə gün ardıcıl olaraq qeyri-iş günləri elan edilib.

Bu da o deməkdir ki, ölkə vətəndaşları dincəlmək üçün regionlardakı hotellərə üz tutacaqlar. Bəs turizm sənayesi bayrama necə hazırlaşır? “Report” mövzunu bazar iştirakçıları ilə müzakirə edib.

### HOTELLƏR GÖZLƏMƏ MÖVQEYİNDƏDİR

“Azərbaycan Hotellər və Restoranlar Assosiasiyası”nın İdarə Heyətinin sədri, eyni zamanda “Azərbaycan Ekoturizm Assosiasiyası”nın icraçı direktoru Samir Dübəndi “Report”a bildirib ki, ölkədəki beşulduzlu hotellər hələ ki, bayram günləri üçün satış etmir və gözləmə mövqeyindədir.

“Bununla belə, vətəndaşların seçim imkanları çoxdur. Regionlarda alternativ yerləşdirmə vasitələrinin təklifləri artmaqdadır - “A frame”, “camp” tipli qonaq evləri, kənd evləri, hostellər, ferma və təsərrüfatlar var. Bu növ gecələmələri seçən turistlərin bir çoxunun adətən səyahət məqsədləri daha spesifik olur. Misal üçün, şərab sevərlər fermalara, üzüm tarlalarına, emal müəssisələrinə üz tutur, “yaşıl turizm” sevərlər “camp”larda qalmağı xoşlayır, kənd həyatına qatılmaq, mövsümü məhsul yığımında iştirak etmək, ev heyvanlarına qulluq etmək məqsədilə gələn turistlər kənd evlərində qalmağa üstünlük verirlər”, - deyə o qeyd edib.

### ƏSAS AXIN HANSI İSTİQAMƏTDƏ OLACAQ?

S.Dübəndinin sözlərinə görə, bayram günlərində əsas turist axını ölkənin bir neçə inkişafda olan destinasiyalarına yönələcək: “Bu destinasiyalar əsas turist yükünü qəbul edirlər. Regional yerləşmə vasitələrinin satışı yüksəkdir. Hazırda görürük ki, 35-100 manat arası iki nəfərlik səhər yeməyi daxil gecələmə xidmətləri bayram günlərinə məhdud sayda olsalar belə, yalnız müxtəlif satış platformalarında və digər satış kanallarında mövcuddur”.

Turizm eksperti hesab edir ki, bayram günlərində Azərbaycanda daxili turizmlə yanaşı, gəlmə və getmə turizm də canlanacaq: “Pandemiyadan öncə Novruz bayramı münasibətilə ölkəyə xeyli sayda İran, Türkiyə, Rusiya, Gürcüstan turistləri gəlirdilər. Hazırda bu coğrafiya bir qədər dəyişib. Azərbaycanda istirahət edən turistlərin sayı öncəki illərlə müqayisədə artmaqdadır”.

## QİYMƏTLƏR FƏRQLİ OLACAQ

“Azərbaycan Turizm Agentlikləri Assosiasiyası”nın İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov deyir ki, bayram günlərində turizm sektorunda qiymətlər adi günlərlə müqayisədə yenə də fərqli olacaq: “Qiymətlər çox yüksək olmasa da, turizm mövsümü olduğu üçün bahalaşma ola bilər. Bu, təkcə ölkə daxilində deyil, ölkə xaricində dincəlməyə də aiddir. Adətən Novruzda vətəndaşlarımız Türkiyə və Birləşmiş Ərəb Əmirliklərinə səfər edirlər. Bu istiqamətlərdə qiymət fərqi var. Amma daxili turizmdəki kimi kəskin fərq yoxdur”.

### TƏTİLƏ GEDƏNLƏRİN SAYI AZALACAQ?

Azərbaycan Turizm Peşəkarları Təşkilatının sədri Ceyhun Aşurov isə hesab edir ki, bu il də Novruz bayramı günləri Ramazan ayına təsadüf etdiyindən, tətil üçün həm ölkə daxilinə, həm də ölkə xaricinə üz tutanların sayının az olacağını proqnozlaşdırmaq olar: “Orucluğa görə bəzi inanclı insanların səfərlərini təxirə salması və yaxud da onu o qədər də aktiv keçirməməsi mümkündür. Qiymətlərə gəlincə isə, ötən illə müqayisədə kəskin fərq gözləmirəm. Çünki, bunun üçün ciddi əsas yoxdur”.



Samir Dübəndi

Göydəniz Qəhrəmanov

Ceyhun Aşurov

# Gənc mütəxəssislər “Nar”da təcrübə keçirlər




“Nar” Azərbaycanın mobil rabitə sahəsinin peşəkar kadrlarının yetişdirilməsi məqsədilə, İT və rabitə ixtisasları üzrə təhsil alan tələbələr üçün təcrübə proqramına başladı. Seçilən 10 tələbə Şəbəkə texnologiyaları departamentində təcrübə keçəcək.

May ayının sonunadək davam edəcək proqram çərçivəsində tələbələr “Nar”ın peşəkar texniki heyətilə birgə çalışacaq və gələcək karyeraları üçün əvəzsiz təcrübi biliklər qazanacaqlar. Təcrübə proqramı “Nar”ın KSM strategiyasının təhsilə dəstək istiqaməti üzrə və Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq çərçivəsində keçirilir.

Bu əməkdaşlıq çərçivəsində universitetdə “Nar” GSM laboratoriyası fəaliyyət göstərir, “Nar”ın texniki heyəti mobil rabitənin əsasları barədə təlimlər keçir və AzTU tələbələri təcrübə proqramlarına cəlb edilirlər.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

ŞƏRAB İSTEHSALÇILARIMIZ TÜRKİYƏNİN TURİZM POTENSİALINDAN YARARLANACAQLAR

# SPİRTLİ İÇKİLƏRİMİZ ÜÇÜN DÜNYAYA AÇILAN QAPI



Azərbaycandan Türkiyəyə spirtli içkilərin ixracı 10 il müddətinə gömrük rüsumundan azad edilir. Bu yenilik Azərbaycana Türkiyənin spirtli içkilər bazarında öz yerini tutmaqda yardımçı ola bilər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycan Türkiyəyə hər il sıfır faiz gömrük dərəcəsi ilə 1,5 milyon litr şərab və fermentləşdirilmiş spirtli içki ixrac edəcək. Türkiyə mətbuatında qeyd olunub ki, bu, Türkiyə Böyük Millət Məclisinin (TBMM) iki ölkə arasında imzalanmış Preferensial Ticarət Sazişinə əsasən qəbul etdiyi qərarda öz əksini tapıb. Qərara əsasən, Azərbaycandan Türkiyəyə spirtli içkilərin idxalı 10 il müddətinə gömrük rüsumundan azad edilib.

Maraqlıdır, qərar spirtli içki ixracatında Azərbaycan üçün hansı imkanları açacaq? Ümumiyyətlə, Türkiyədə spirtli içkilərimizə tələbat necədir və əsasən, hansı spirtli içkilərin ixrac potensialı yüksəkdir?

**15 MİLYARD DOLLARLIQ HƏDƏF...**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən "Kaspi" qəzetinə verilən məlumata görə, Azərbaycan ilə qardaş Türkiyə arasında xarici ticarət dövriyyəsinin 15 milyard ABŞ dollarına çatdırılması hədəfinə nail olmaq üçün göstərilən səylər müsbət nəticə verir: "İki ölkə arasında bağlanan preferensial ticarət müqaviləsi bu sahədə önəmli rol oynayır. Müqavilə əsasında hər iki ölkə tərəfindən idxal ediləcək məhsullar fiskal rüsumlardan azad ediləcək və nəticədə hər iki ölkəyə məxsus məhsullar daxili bazarlarda daha rəqabətqabiliyyətli olacaq".

**2023-cü ildə spirtli və spirtsiz içkilərin ixracı $ 60,2 mln təşkil edib**

**MƏHSULLARIMIZIN RƏQABƏT QABİLİYYƏTİ ARTACAQ**

Qurumdan bildirilir ki, bu müqavilə ilə Azərbaycan Türkiyənin spirtli içkilər bazarında öz yerini tuta bilər: "Qeyd edək ki, 2023-cü ildə Azərbaycanın qeyri-neft/qaz sektorunda yer alan spirtli və spirtsiz içkilərin ixracında əhəmiyyətli canlanma müşahidə edilib. Belə ki, 2023-cü ilin yekunlarına görə, spirtli və spirtsiz içkilərin ixracı 29,2 milyon ABŞ dolları və ya 94,1% artaraq 60,2 milyon ABŞ dolları təşkil edib. Sözügedən məhsulların əsas ixrac coğrafiyası avrozona ölkələri arasında İspaniya və Avstriya, MDB ölkələri arasında isə Rusiya və Qazaxıstan olub. Türkiyə Cümhuriyyətinə gəldikdə isə, bu ölkəyə ixrac edilən spirtli və spirtsiz içkilərin həcmində ötən illərlə müqayisədə artım müşahidə olunub. Qarşıdakı müddətdə Azərbaycanın spirtli içki məhsulları sıfır gömrük rüsumu ilə Türkiyəyə ixrac edilərsə, bu, onun qardaş ölkənin bazarında rəqabət gücünü artıracaq. Nəticədə Azərbaycanın spirtli içki məhsulları Avropa və MDB ölkələri ilə yanaşı, Türkiyə bazarında da rəğbət qazana bilər".

## O inkişafın qarşısı alınmasa idi...

İqtisadçı Fuad İbrahimov isə bildirir ki, Azərbaycanın spirtli içki istehsalı sahəsində kifayət qədər təcrübəsi var: "Azərbaycanda sovet dönəmində içki istehsal edən qabaqcıl müəssisələr var idi. Şərabçılıq, üzümçülük o dövrdə də kifayət qədər inkişaf etmişdi. Lakin o dövrdə SSRİ-nin yarıtmaz idarəetmə üslubu ölkədə üzümçülük və şərabçılığı məhv etdi. Halbuki o inkişafın qarşısı alınmasa idi, bu gün qeyri-neft sektorunda, əsasən də kənd təsərrüfatı sahəsində şərabçılıq mühüm yerə sahib olardı. Bu gün ölkəmizdə üzümçülük və şərabçılıq sahəsində kifayət qədər irəliləyiş var".

## İxracın coğrafiyası şaxələnməlidir

İqtisadçı vurğulayır ki, spirtli içki ixracımızda ənənəvi istiqamətlərimiz həmişə Rusiya, Ukrayna, Belarus olub: "Bu ixracın coğrafiyası şaxələnməlidir. Bu gün ölkəmizdə bu sahədə Şərq və Qərb istiqamətində də kifayət qədər işlər görülür. Qardaş Türkiyəyə ixracın isə bizə əhəmiyyətli dərəcədə geridönüşləri olacaq. Çünki Türkiyə turizm sənayesində kifayət qədər dayanıqlı mövqedədir. Bu baxımdan, bizim məhsullarımız bu ərazilərə güzəştli şəkildə daxil olarsa və dövriyyəyə cəlb edilərsə, ilk növbədə turizm dünyasında bunun tanınması prosesi sürətli gedəcək. Bu da öz növbəsində Azərbaycan brendlərinin digər ölkələrdə reklamını gücləndirəcək. Nəzərə almaq lazımdır ki, dünyada spirtli içkilər və tütün məmulatları ilə bağlı kifayət qədər yüksək rüsumlar, aksizlər tələb olunur. Belə bir vəziyyətdə qardaş Türkiyəyə spirtli içkilərin gömrük rüsumu olmadan ixracı, bu məhsulun iqtisadi dövriyyəyə cəlb olunmasında, şaxələnməsində və təbliğ olunmasında kifayət qədər müsbət rol oynayacaq"



Fuad İbrahimov

## YERLİ ÜZÜM SORTLARI ÖN PLANDA

Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru Vüqar Səlimov deyir ki, dünyada artıq şərabçılıq sahəsində yeni ağız dadına, yeni brendlərə ehtiyac duyulur.



Vüqar Səlimov

Azərbaycanda yerli sortdan hazırlanan şərablar bu tələbatı qarşılamaq iqtidarındadır: "SSRİ dağıldıqdan sonra ölkəmiz yerli sortlarla bağlı tam potensialını ortaya qoymamışdı. Ölkədə istehsal olunan şərabların əksəriyyəti xarici sortlardan alınırdı. İndi müəyyən şərab zavodları var ki, yerli sortların istehsalına başlayıblar. Həmçinin, dünya bazarında da artıq xarici sortlarda rəqabət qabiliyyəti aşağı düşüb, yerli sortlara tələbat yüksəlib. Məsələn, Fransanın, İtaliyanın müxtəlif növ şərablarına tələbat əvvəlki kimi deyil".

**YENİ DAD, YENİ KEYFİYYƏT**

Mütəxəssis vurğulayır ki, hazırda Azərbaycanın yerli texniki üzüm sortlarından alınan şərablara maraq çoxdur: "Azərbaycanın iqlim tipi aqromüxtəliflik yaradır. Bu aqromüxtəliflik şərabçılıq sahəsinə də müsbət təsir göstərir, üzümlərimizin biokimyəvi tərkibini zənginləşdirir. Bu səbəbdən də Azərbaycan şərabları kimyəvi göstəricilərinə görə çox zəngindir. Bu gün Azərbaycan şərabları bazara yeni dad, yeni keyfiyyət gətirir və xaricdə qırmızı şərablarımıza tələbat çoxdur. Ölkədə yetişdirilən Şirvanşahı, Mədrəsə, Həməşərə, Bayanşirə, Xındoqnı kimi texniki üzüm sortlarından yüksək keyfiyyətli, harmonik dada malik şərablar istehsal olunur. Gələcəkdə də yerli sortlarla xaricdə rəqabətqabiliyyətli məhsullarla təmsil oluna bilərik".

# İNTİBAHIN BEŞİYİNDƏKİ QƏDİM MÖCÜZƏ



**Florensiyanın əzəmətli memarlığını görmək üçün dünyanın hər yerindən buraya turistlər gəlir. Onlar üçün fəslin fərqi yoxdur. İtaliyanın Toskana vilayətinin paytaxtı turistlərə səyahət üçün təəssüratları ömür boyu yaddan çıxmayacaq yerlər təklif edir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Tarixi və mədəniyyəti sevənlər üçün açıq hava altında böyük muzeydir Florensiya şəhəri. Əfsanəyə görə, əsası Yuli Sezar tərəfindən qoyulub. Nadir qədim eksponatlarla, muzeylərlə, məbədlərlə, meydanlarla, abidələrlə zəngindir. Bu qədim şəhərin əzəmətli memarlığını görmək üçün dünyanın hər yerindən turistlər gəlir. Onlar üçün fəslin qış və yay, yaz və ya payız olmasının fərqi yoxdur. İtaliyanın Toskana vilayətinin paytaxtı turistlərə təəssüratları ömür boyu yaddan çıxmayacaq elə yerlər təklif edir ki, bu gözəl və heyrətamiz şəhərə səfər həmişəlik yaddaşlara yazılır.

### İNSANLAR NİYƏ BU ŞƏHƏRƏ GEDİR?

Romadan Florensiyaya hər saatdan bir avtobuslar və qatarlar gedir. Roma dəmir yolu stansiyasından yola düşən rahat qatarlar 1,5 saat (bir tərəfə biletin qiyməti 21,95 avro) sərnişinləri bu füsunkar şəhərə çatdırır. Elektrik qatarı daha ucuzdur - 14,3 avro. Ekspress avtobusla Romanın Tiburtina avtovağzalından Florensiyaya səyahət isə 4,5 saat çəkir.

Səhər 07.40 qatarı ilə Romadan Florensiyaya yola düşürəm... “İnsanların bu şəhərə axışmasının səbəbi nədir?” - yol boyu məni düşündürən suala cavab tapmaq şəhərə ayaq basandan sonra asanlaşır: insanlar burada intibah dövrünün ab-havasına qərq olur, kafedralların qədim divarlarına toxunur, klassik ustaların əsərlərinə baxır, ən son dəb tendensiyalarını tuturlar...

### İNTİBAH DÖVRÜNƏ YAŞIL İŞIQ

Florensiyaya “İntibah dövrünün beşiyi” deyirlər. Zarafat deyil, dünyaya Leonardo da Vinçi və Qaliley, Dante və Mikelancelo, Donatello, Covanni Bokaçço kimi böyük şəxsiyyətlər bəxş edib.

Florensiya haqlı olaraq fəxr edir ki, məhz onun mütəfəkkirləri intibah dövrünə yaşıl işıq yandırıblar və bütün Amerika qitəsi florensiyalı məşhur səyyah Ameriqo Vespuççinin adını daşıyır. Təəccüblü deyil ki, bu təfəkkür nəhəngləri nəinki öz dövrlərində, hətta əsrlər boyu Avropa və dünya elminin və incəsənətinin inkişafına təsir göstərməkdə davam edirlər.



## FLORENSİYA DÜNYACA MƏŞHUR MUZEYLƏRİN VƏTƏNİDİR

Şəhərin öz füsunkarlığı və əzəməti ilə heyran edən intibah dövrünün məşhur tarixi abidələri YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Antik dövrdən son intibah dövrünə qədərki dövrü əhatə edən - gözəl xiyabanları, fəvvarələri, bağları və heykəlləri ilə füsunkar bir park olan Boboli bağlarını gəzməyə hər turist can atır.

Florensiya dünyaca məşhur muzeylərin vətənidir. Bir çox insan buraya yalnız Karavaccio, Rafael, Tisian, Botticelli, Leonardo, Signorelli, Perugino, Dürer, Cimabue, Duccio və Giotto və digər dünya şöhrətli rəssamların əsərlərini nümayiş etdirən Uffizi qalereyasını ziyarət etmək üçün gəlirlər. Mikelancelonun “David”inin orijinalının saxlandığı Təsviri İncəsənət Akademiyasını ziyarət üçün saatlarla növbəyə düzülən turistlərin sırasında mən də növbəmi gözləyirəm...

Dante Aliqyerinin şəhərin ən tarixi hissəsində yerləşən ev muzeyini ziyarət etməklə “İlahi komediya”nın antik ədəbiyyatda yaratdığı intibahı daha yaxşı anlayıram. Dante öz əsərində Florensiya danışıq dilinin gözəlliyini və ləzzətini ortaya qoymaqla yerli ləhcənin sonda italyan ədəbi dilinin əsasına çevrilməsinə nail olub. Bu intibaha Ciovanni Bokkaççonun “Dekameron” əsəri ayrıca töhfə verib.

Bu fikir nəhənglərinin təqdim etdiyi əsərlərin sərgiləndiyi muzeylərə giriş qiymətləri 20-45 avro arasında dəyişir. Hər bir muzey uzun-uzadı növbələrdə dayanmamaq üçün üç ay öncədən turistlərə onlayn bilet satışı da təklif edir.













## “BU YERLƏRDƏ ÇOXLU FİLMLƏR ÇƏKİLİB”

Florensiyaya gələn turistlər Toskana vilayətinin tarixi ilə bərabər təbiəti və kənd həyatı, üzümçülük, zeytunçuluq təsərrüfatları ilə tanışlıq fürsətini qaçırmırlar. Şəhər kənarlarına turlar təşkil edən turizm şirkətlərinə hər küçədə rast gəlinir. 64-99 avro arası qiymətlər təklif edən şirkətlər turistləri gündəlik turlarla şəhər kənarına və yaxın şəhərlərə səyahətə daşıyırlar.

Siena-Pisa-San Gimignano turu - vadi ərazisinə səyahət həqiqətən Toskananın bütün füsunkarlığını görməyimə fürsət oldu. Florensiyadan ayrılaraq yol boyu tanış olduğum əyilmiş qülləsi (Torre pendente di Pisa) ilə məşhur olan Piza, şərab şəhəri və at yarışları ilə tanınan orta əsr Siena, qədim qala və kilsələri, səmaya uzanan 14 qülləsi ilə diqqət çəkən tarixi San-Gimignano şəhərləri nağıl təsiri bağışlayır. Qış olsa da yaşıllığını saxlayan yollar isə bir başqa aləmdir.

Bələdçimiz Barbara üzüm və zeytun bağları ilə örtülmüş təpələri, onların arasında səpələnmiş qədim şəhərləri, hər biri digərindən daha gözəl olan ormanları göstərərək “bu yerlərdə çoxlu filmlər çəkilib” dedi: “İncəsənət həvəskarları, qurmanlar və adi turistlər planetimizin ən gözəl guşələrindən birini görmək həvəsi ilə Toskanaya gəlirlər”.

### BAŞAĞRISINA ÇEVRİLƏN MİQRANTLAR

Florensiya ta qədimdən sənaye şəhəridir. Xüsusən dəri və qızıl məmulatların istehsal ilə tanınır. Dəri çantaların və ayaqqabıların qiymətləri dükanlara görə dəyişir. Şəhərin mərkəzi hissələrində göz qamaşdıran qızıl və zinət mağazaları sıralanıb.

Bu gün Florensiya həm də miqrantların şəhəridir. Hər tində rastlaşdığın, vağzallarda, şəhərin küçələrində gecələyən miqrantlar yerlilərdən çox turistlərə təlaş yaşadırlar: hər addımda oğurluq baş verir. Bu kimi hallar təkcə İtaliya polisi üçün deyil, ümumilikdə dövlət üçün başağrısına çevrilib. Hotel işçiləri də, tur bələdçiləri də küçəyə çıxarkən mütləq “əl və bel çantanızdan ehtiyatlı olun” xəbərdarlığını edirlər.

ÜÇ ƏSRİN QƏZETİ
Kaspi
İDMAN
RT ŞƏNBƏ 2024
www.kaspi.az




# ƏZƏLİ RƏQİBLƏRİN AMANSIZ YARIŞI

İstanbul nəhəngləri - "Qalatasaray" və "Fənərbağça"nın çempionluq mübarizəsi həm meydanda, həm də meydandan kənarda kifayət qədər rəngarəngdir. Mövsümün sonuna doğru tərəflər üstünlük əldə etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırlar.

Türkiyə Super Liqasında son illərin ən maraqlı mövsümlərindən biri davam edir. İstanbul nəhəngləri - "Qalatasaray" və "Fənərbağça"nın çempionluq mübarizəsi həm meydanda, həm də meydandan kənarda kifayət qədər rəngarəngdir. Mövsümün sonuna doğru tərəflər üstünlük əldə etmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırlar.

### NƏFƏS KƏSƏN MÜBARİZƏ

27 turdan sonra "Qalatasaray" turnir cədvəlində vahid liderdir. "Sarı-qırmızılar" 72 xal toplaya biliblər. Okan Burukun komandası son 15 qarşılaşmada məğlubiyyət üzü görməyib. Kollektiv ardıcıl 8 matçdır meydanı qələbə ilə tərk edir.

"Fənərbağça" isə cəmi iki xal az toplayıb və ikinci pillədədir. "Bülbüllər" 16 görüşdür uduzmur. Lakin bunların 4-də heç-heçə qeydə alınması "Qalatasaray"ın iki xal önə keçməsi ilə nəticələnib. Ümumiyyətlə, "Fənər" mövsümün əvvəlində daha yaxşı formada idisə, son zamanlar əzəli rəqibləri onları üstələyir.

Digər komandalar "Qalatasaray" və "Fənərbağça"ya müqavimət göstərməyi bacarmırlar. Təsadüfi deyil ki, 3 və 4-cü yerləri bölüşdürən "Beşiktaş"la "Trabzonspor" liderdən nə az, nə çox - 26 xal geri qalırlar. Mövsümün sonuna qədər hansısa komandanın "Qalatasaray"la "Fənərbağça"ya müqavimət göstərəcəyi inandırıcı görünmür.

Adıçəkilən kollektivlər tək xal fərqinə görə yox, digər göstəricilərdə də rəqiblərini böyük fərqlə üstələyirlər. 70 dəfə fərqlənən "Fənərbağça" mövsümün ən məhsuldar komandasıdır. "Qalatasaray"da bu göstərici 57-yə bərabərdir. Lakin "cimbom" müdafiədə etibarlı oyunu ilə diqqət çəkir. Komanda cəmi 15 qol buraxıb. Müqayisə üçün qeyd edək ki, "Fənərbağça"da bu göstərici 22-dir.

Bombardirlik yarışında da çempionluğa əsas namizədlərin üzvləri üst sıralardadırlar. "Fənərbağça"nın bosniya və herseqovinalı forvardı Edin Ceko 18 qolla liderdir. "Qalatasaray"ın ulduzu Mauro İkardi isə 14 dəfə fərqlənib və 2-ci yerdə qərarlaşıb.

### "FƏNƏRBAĞÇA"NIN 10 İLLİK HƏSRƏTİ

"Qalatasaray" son Türkiyə çempionudur. Komanda ötən mövsüm gərgin mübarizənin sonunda məhz "Fənərbağça"nı üstələyərək titula yiyələnib. Komanda son 10 ildə 4 dəfə ölkənin ən güclüsü adını qazanıb. "Fənərbağça"da isə vəziyyət fərqlidir. İsmail Kartalın çalışdırdığı kollektiv uzun illərdir titula həsrətdir. Komanda sonuncu dəfə 2013/14 mövsümündə Türkiyə çempionu ola bilib.

Mövsümün gedişatı "Fənərbağça" azarkeşlərini uzun həsrətə son qoymağa ümidləndirib. Lakin "Qalatasaray" da əzəli rəqibi ilə mübarizədə geri qalmaq barədə düşünmür.



OKAN BURUK

İSMAİL KARTAL

## MEYDANDAN KƏNARDAKI MÜBARİZƏ

Türkiyədə, demək olar ki, heç bir mövsüm qalmaqalsız ötüşmür. Bu il də istisna deyil. Xüsusən, çempionluq mübarizəsi aparan komandaların rəqabətində bu, özünü daha qabarıq göstərir.

"Qalatasaray" və "Fənərbağça"nın, demək olar ki, hər bir oyunu, hər matçdakı adi epizodlar böyük ajiotaja səbəb olur. Az qala hər qarşılaşmadan sonra qarşılıqlı ittihamlar səsləndirilir. Əvvəllər bunlar azarkeşlərin atmacaları ilə məhdudlaşırdısa, artıq klub rəhbərləri səviyyəsində müşahidə olunur. Hər iki tərəf bir-birini hakimlərdən kömək almaqda ittiham edir. Mübarizə gərginləşdikcə, mövsümün sonu yaxınlaşdıqca ittihamların dozasında da artım müşahidə olunur. Əlbəttə, bu, bir tərəfdən də tərəflərin bir-biri üzərində psixoloji üstünlük qazanmaq cəhdləridir.

### KİM ŞANSLIDIR?

Finişə 11 tur qalmış tərəfləri cəmi 2 xalın ayırması hər şeyin son turlarda həll olunacağını deməyə əsas verir. Kollektivlər 27 turdan sonra Super Liqa tarixində rekord xallar əldə ediblər. Bu, rəqabətin səviyyəsini anlamaq üçün kifayətdir.

"Qalatasaray" bu mövsüm avrokuboklarda uğursuzluğa düçar olub. Çempionlar Liqasından Avropa Liqasına yuvarlanan kollektiv orada da irəli getməyi bacarmadı. Bu da onlara bütün diqqəti ölkədaxili yarışlara yönəltməyə imkan yaradıb. "Qalatasaray"dan fərqli olaraq "Fənərbağça" Konfrans Liqasında mübarizəni davam etdirir.

Tərəflərin qarşıdakı oyunlarına gəlincə, bu həftə "Qalatasaray"ı "Beşiktaş"la ağır səfər matçı gözləyir. "Fənərbağça" məhz bu görüşdəki mümkün xal itkisindən yararlanıb zirvəni ələ keçirməyin planlarını qurur. Lakin "bülbüllər"in də qarşıda kifayət qədər ağır qarşılaşmaları var. Komanda 30-cu turda "Trabzonspor"un qonağı olacaq, 34-cü turda isə "Beşiktaş"a qarşı əhəmiyyətli ev oyunu var.

Mütəxəssislər hesab edirlər ki, çempionluq mübarizəsi son tura qədər davam edəcək. Hansı tərəfin daha güclü olduğunun aydınlaşması baxımından ən əhəmiyyətli qarşılaşma isə 37-ci turda olacaq. Mayın 19-da "Qalatasaray" öz meydanında "Fənərbağça"nı qəbul edəcək. Məhz bu görüşdə güclü olacaq tərəfin yekunda çempionluğu bayram edəcəyi proqnozlaşdırılır.